# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 may 2026-cı il, çərşənbə

№ 092 (7159)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



# Zirvələrə yüksələn, möhtəşəm zəfərlər qazanan müstəqil Azərbaycan!

Bax səh. 2

## Ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram!

### Prezident Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb

Bax səh. 2



## Milli Məclisin yaz sessiyası başa çatıb

Bax səh. 5

## Siyasi partiyaların inkişafına dövlət tərəfindən diqqət artırılır



Bax səh. 4

## Siyasi varislik dövlət müstəqilliyinin qorunmasının əsas amili kimi

Bax səh. 4

## Aqrar sektorun yeni inkişaf prioritetləri

Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Proqram 2026-2030-cu illərdə aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsini, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini, aqrar sahədə dəyər zəncirlərinin inkişaf etdirilməsini, fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur. Dövlət Proqramında aqrar sahənin resurs təminatının gücləndirilməsi, su və torpaq ehtiyatlarından səmərəli istifadənin təşviqi, aqrar təhsil, elm və innovasiya sahələrinin inkişaf etdirilməsi, aqrar-emal və logistika infrastrukturunun genişləndirilməsi, subsidiya və dövlət dəstəyi...

Bax səh. 5

## Müqəddəs Qurban bayramının böyük sevinci və xoşbəxtliyi!

Daha bir əziz günü qarşılamaq qismətimiz oldu. Bu il mayın 27-də ölkəmizdə müqəddəs Qurban bayramı qeyd olunur. İnsanlar uca Yaradana yaxın olmağın sevincini və xoşbəxtliyini yaşayırlar.

Bütün İslam dünyasının ən əziz günlərindən biri olan Qurban bayramı müsəlmanların mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzinə çevrilib. Təməlində humanizm, paylaşmaq, məfkurəyə sadiqlik kimi bəşəri ideyaların dayandığı Qurban bayramı insanları birbirinə daha yaxın edir, onları həmrəyliyə, mənəvi saflığa, ruzi-bərəkətin sevincini başqaları ilə bölüşməyə çağırır. Bu əziz günlərdə ölkəmizin hər yerində qurbanlar kəsilir, xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Respublikamızın...

Bax səh. 6

## Atəşkəs üçün atəş?

Yaxın Şərqdə sülhün əldə olunması istiqamətində danışıqlar prosesi gözlənilərkən yenidən silahlar işə düşüb. Belə ki, Fox News xəbər verir ki, ABŞ ordusu Hörmüz boğazında mina atan iki İİKK katerini, eləcə də ABŞ təyyarələrini hədəf alan İran hava hücumundan müdafiə sistemini vurduğunu açıqlayıb. ABŞ Mərkəzi Komandanlığının sözçüsü kapitan Tim Hokins bildirib ki, ABŞ ordusu özünümüdafiə məqsədilə İranın cənubunda İran qayıqlarını və raket buraxıcı qurğularını vurub. "Bu gün ABŞ qüvvələrinə təhdid yaradan hallardan qorunmaq üçün İranın cənubuna özünümüdafiə məqsədli zərbələr endirib. ABŞ ordusu açıqlamasında bildirib ki, hədəflər raket buraxıcı qurğular və mina atan İran qayıqları olub. Hokinsin sözlərinə görə, ABŞ İranla atəşkəs rejimi çərçivəsində "təmkinli davranmağa" davam edir. Qeyd edilib ki, İranın Bəndər Abbas limanında yer-hava raket sistemini vurub. O bildirib ki, SAM ABŞ hərbi təyyarələrini hədəfə alıb. Bildirilib ki, ABŞ zərbələri artıq başa çatıb. Xüsusi olaraq vurğulanıb ki, baş verənlər hücum xarakterli olmayıb, müdafiə xarakterli...

Bax səh. 6

## Dünyada sülhməramlıların sayı niyə azalır?

Dünyada ötən ilin sonuna qədər sülhməramlı əməliyyatlarda iştirak edən şəxsi heyətin sayı 25 ilin ən aşağı səviyyəsinə enib. Bu barədə Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun (SIPRI) analitik hesabatında bildirilir. Məlumata görə, 31 dekabr 2025-ci il tarixə olan göstəriciyə əsasən, sülhməramlı əməliyyatlarda 78 633 beynəlxalq şəxsi heyət iştirak edib ki, bu da 2016-cı illə müqayisədə 49 faiz azalma və 2000-ci ildən bəri ən aşağı səviyyədir. SIPRI mütəxəssisləri qeyd edirlər ki, sülhməramlı heyətin sayında azalma on ildir davam edir, lakin 2025-ci ildə azalma ən kəskin - əvvəlki illə müqayisədə 17 faiz olub.

Hesabatda vurğulanır ki, geosiyasi gərginliklər, siyasi təzyiqlər və maliyyə böhranları çoxtərəfli sülhməramlı əməliyyatların davamlılığını təhdid edir. 2025-ci ildə 34 ölkə və regionda 58 çoxtərəfli sülhməramlı əməliyyat aktiv olub ki, bu da əvvəlki...

Bax səh. 7

## NATO Kiyevə yeni hərbi yardım planını bloklayıb

Rusiya - Ukrayna müharibəsində qarşılıqlı hücumlar şiddətlənib. Qalıcı atəşkəs təşəbbüslərinin nəticə vermədiyi üçün Kiyev tərəfdaşlarından dəstəyi artırmağa çalışır. Ukrayna bu məsələdə NATO müttəfiqlərinin köməyinə ümid edir. Xatırladaq ki, aprelin sonlarında alyansın Baş katibi Mark Rutte təşkilata üzv dövlətlərin ÜDM-in 0,25 faizini Ukraynaya ayırmasını təklif etmişdi. Rutte bu təklifi NATO səfirlərinin qapalı iclasında verib. Əgər onun təklifi müttəfiqlər tərəfindən dəstəklənərdisə, alyansın illik ayırdığı vəsait üç dəfə artaraq, 143 milyard dollara çatmalı idi. Bu məsələ İsveçin Helsinqborq şəhərində keçirilən NATO Xarici İşlər Nazirlərinin iclasında yenidən müzakirə olunub. Qərarın qəbulu üçün alyansın bütün üzvlərinin razılığı tələb edilirdi.

Lakin müzakirələr zamanı NATO ölkələrinin Ukraynaya hər il ÜDM-in ən azı 0,25 faizi həcmində hərbi yardım göstərməsini nəzərdə...

Bax səh. 7

# Ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram!

## Prezident Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb



Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzularımı yetirirəm.

İslamın sonuncu səmavi din və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini təcəssüm etdirən Qurban bayramı günlərində milyonlarla müsəlman Həcc ziyarətində bir araya gəlir, birlik və bərabərliyin, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olmanın qürur və sevincini yaşayır.

Hər il ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunan Qurban mərasimləri insanlar arasında həmrəylik, humanizm və mərhəmət duyğularını daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə bağlılığın, xeyirxah əməllərin təntənəsinə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək günlərdə şəhidlərimizin ölməz xatirəsini bir daha minnətdarlıqla yad edir, xalqımızın və dövlətimizin əmin-amanlığı naminə etdiyiniz duaların Tanrı dərgahında qəbul olunması diləyi ilə ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 26 may 2026-cı il**

# Əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirik

## Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampdan Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident Əliyev.

Müstəqillik Gününüz münasibətilə Sizi və əziz Azərbaycan xalqını təbrik etmək istəyirəm.

2025-ci ilin avqust ayında Vaşinqtonda keçirilmiş tarixi sülh sammitindən bəri biz münasibətlərimizi yenidən canlandırmaq üçün birlikdə çalışmışıq və bunun nəticəsi olaraq Vitse-prezident Vens 2026-cı il fevralın 10-da Bakıda Sizinlə Strateji Tərəfdaşlıq Xartiyamızı imzalamışdır. Biz regional əlaqələr, iqtisadi münasibətlər və təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə tərəfdaşlığımızı daha da dərinləşdiririk və bu istiqamətlərdə, həmçinin digər sahələrdə əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirik.

Birləşmiş Ştatlar Azərbaycan və Ermənistan arasındakı dayanıqlı sülhü dəstəkləməyə davam edir. Ötən ilin avqust ayında parafladığınız sülh sazişinin irəlilədirilməsi istiqamətində Azərbaycanın göstərdiyi səylər, həmçinin sərhədlərin delimitasiyası üzrə davam edən proses,



2026-cı ilin yanvar ayında dörd erməni məhbusun azad olunması, Ermənistana yanacaq tədarükü və hər iki ölkənin vətəndaş cəmiyyətlərini bir araya gətirən “Sülh Körpüsü” təşəbbüsü bizi ruhlandırır.

Biz strateji tərəfdaşlığımızı gələcək illərdə və onilliklərdə daha da möhkəmləndirməyi səbirsizliklə gözləyirik.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

Hörmətlə,

**Donald Tramp**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

# Tehrandan zəng...

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, dövlət başçıları müqəddəs Qurban bayramı münasibətilə bir-birlərinə təbriklərini çatdırıb, Azərbaycan və İran xalqlarına firavanlıq və ruzi-bərəkət arzulayıblar.

İran İslam Respublikasının Prezidenti ölkəsinin üzləşdiyi ağır günlərdə Azərbaycanın göstərdiyi humanitar yardımlara görə bir daha təşəkkürünü bildirib.

Prezident İlham Əliyev öz növbəsində qeyd edib ki, Azərbaycan və İran yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birinin yanındadır.

Telefon söhbəti zamanı ikitərəfli əlaqələrin inkişafı və perspektivləri barədə fikir mübadiləsi aparılıb.



# Zirvələrə yüksələn, möhtəşəm zəfərlər qazanan müstəqil Azərbaycan!

Müstəqil dövlətə sahib olmaq, BMT-də bayrağının dalğalanması, dünyanın mötəbər auditoriyalarında himninin səsləndirilməsi hər bir xalqın müstəsna arzusudur. Bu mənada Azərbaycan xalqı xoşbəxt xalqdır ki, hazırda onun dünyada nüfuzu getdikcə artan, regional aktordan qlobal aktora çevrilən müstəqil dövləti var.

Bu gün dünya azərbaycanlılarının sonsuz qürur mənbəyi olan müstəqilliyimizin təməli isə 108 il bundan əvvəl qoyulub. Yüzilliklər boyunca qəlbində azadlıq arzuları daşıyan, tarixin müxtəlif dönəmlərində bu ideya uğrunda mücadilələrə qatılan Azərbaycan xalqı 28 may 1918-ci ildə müstəqil dövlətinin - Azərvaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasını dünyaya bəyan edib.  Böyük ideallarla yaradılan AXC müsəlman Şərqində demokratik əsasda qurulan ilk parlamentli respublika idi.

**Tarixi hadisə - itirilmiş dövlətçiliyin bərpası**

Azərbaycan bəhs olunan tarixdə müstəqilliyini çox çətin və ziddiyyətli hadisələrin baş verdiyi bir dönəmdə qazanıb. Həmin dövrdə imperiyalar bir-birinin ardınca süqut edirdi, dünya nizamı yenidən müəyyənləşirdi, xalqlar üçün çox mühüm çağırışlar yaranmışdı. Belə bir şəraitdə1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurasının Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycanın istiqlaliyyəti haqqında bəyannaməni qəbul etməsi və Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması xalqımızın zəngin dövlətçilik tarixində mühüm bir həlqəni təşkil edir. Bununla xalqımız milli şüurunda zəngin dövlətçilik ənənələrinə sadiq qaldığını bir daha nümayiş etdirdi. Əslində, AXC-nin bəyan edilməsi 1828-ci ildə baş tutan işğaldan sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası idi. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısındakı çıxışlarında  Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını və iki il ərzində fəaliyyətini tarixi hadisə kimi səciyyələndirib.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirib. Birinci respublikanın qısa mövcudluğu ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılıb, dövlət atributları təsis olunub, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilib. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynayıb. Azərbaycan vətəndaşlığı institutunun, dövlət atributlarının təsis edilməsi kimi faktlar dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynayıb. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırıb. Milli ordu qurulub və Qafqaz İslam Ordusu ilə birlikdə Bakı işğalçılardan azad edilib. AXC dövründə olduqca mütərəqqi sayılan müddəaları özündə əks etdirən çoxsaylı qanunlar qüvvəyə minib.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xarici siyasətinin başlıca məqsədi yeni yaradılmış dövləti dünyaya tanıtmaq idi. Milli hökumətin qarşısında dayanan əsas vəzifələrdən biri Paris Sülh Konfransında, dünyanın siyasi nizamının yenidən quruluş aldığı tarixi mərhələdə müttəfiq dövlətlər tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasını, habelə dünyanın aparıcı dövlətləri ilə diplomatik əlaqələrin yaradılmasını təmin etmək idi. Buna görə də ilk növbədə, Avropanın bir sıra ölkələrinə yeni bir dövlətin qurulması barədə rəsmi məlumat göndərildi və AXC dünya birliyi tərəfindən tanındı.

Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən AXC xalqımızın milli və siyasi şüurunun nəticəsi idi. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan AXC xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci ilin avqustunda “Xalq maarifinin, məktəblərin milliləşdirilməsi haqqında” qərarla tədris müəssisələrində təhsilin ana dilində aparılmasına başlanması böyük nailiyyət idi. 1919-cu ilin sentyabrında Xalq Cümhuriyyəti parlamenti tərəfindən Bakı şəhərində universitet açmaq haqqında qanun qəbul edildi. Bakı Dövlət Universitetinin Nizamnaməsinin təsdiqlənməsi və onun fəaliyyətə başlaması milli və peşəkar kadrların hazırlanması istiqamətində atılmış mühüm addım oldu. Xalq Cümhuriyyətinin dövründə universitet ilə yanaşı, digər ali və orta təhsil müəssisələrinin, habelə mədəniyyət ocaqlarının açılması üçün hazırlıqlar görülürdü.

Birinci respublika hökumət quruculuğunda ədliyyə sahəsinə xüsusi önəm verib və məhz 1918-ci il mayın 28-də - Cümhuriyyətin yarandığı gün Ədliyyə Nazirliyi də təsis edilib. Eyni zamanda, ədliyyə orqanları və məhkəmələrin fəaliyyətini tənzimləyən bir sıra qərarlar qəbul olunub. Belə ki, 1918-ci il noyabrın 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilib.

**Bir əsrdə ikinci dəfə qazanılan müstəqillik - AXC-nin varisliyinin təmin edilməsi**

XX yüzilliyin əvvəllərində regionda cərəyan edən ziddiyyətli geosiyasi proseslər fonunda, təəssüf ki, AXC-nin ömrü də qısa oldu. Belə ki, müasir dövlətçilik tariximizdə mühüm mərhələni təşkil edən  Birinci Respublika cəmi 23 ay yaşayıb və 1920-ci il aprelin 28-də süqut edib. Sonrakı mərhələdə respublikamız təxminən 70 il keçmiş SSRİ-nin tərkibində qalsa da, xalqımız müstəqillik ideyalarını həmişə qəlbində yaşadıb və müstəqil dövlətini qurmağa can atıb. Belə tarixi fürsət isə ötən əsrin doxsanıncı illərinin əvvəlində yaranıb.

Ali Sovet 1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktını qəbul edib. Bu, tarixi bir qərar idi. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsinə istinad olunub və Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilib.

Azərbaycan parlamentinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında “Müstəqillik Günü haqqında” yeni qanun qəbul edilib. Elə həmin gün də Prezident İlham Əliyev tərəfindən “Müstəqillik Günü haqqında” qanun təsdiqlənib.




Qanunun təsdiqlənməsi ilə 28 May - Respublika Gününün və 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününün adı dəyişdirilib. Belə ki, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilib.

**Müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı**

Hər bir dövlətin və xalqın taleyində ideyaları ilə zamanı qabaqlayan liderlər əvəzsiz rol oynayırlar. Müstəqil Azərbaycan Respublikası üçün belə həmişəyaşar Lider böyük siyasətçi, xalqını və Vətənini çox sevən Heydər Əliyev olub. O,  XX yüzilliyin sonlarında müstəqilliyimizin bərpası və möhkəmlənməsi naminə müstəsna missiya yerinə yetirib.

XX yüzillikdə Azərbaycanın ikinci dəfə müstəqilliyinə qovuşmasının əsası məhz bu dahi şəxsiyyətin səyləri və cəsarəti sayəsində Naxçıvanda qoyulub. Muxtar Respublikanın Ali Sovetinin 17 noyabr 1990-cı il tarixində  Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Onun cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün cəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Bu gün Heydər Əliyevin o dövrdə atdığı bu kimi cəsarətli addımlar kimlərə isə adi görünə bilər. Lakin bu, belə deyil. Bəhs olunan dövrdə hələ sovet ittifaqı, kommunist partiyası fəaliyyət göstərirdi və belə addımların atılması çox təhlükəli idi. Heydər Əliyev isə təhdidlərdən çəkinməyərək respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail oldu. Bir qədər sonra-1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

Tale elə gətirdi ki, Azərbaycanın ötən əsrin 90-cı illərinin əvvəllərində ikinci dəfə əldə etdiyi müstəqilliyini qorumaq missiyası da Heydər Əliyevin üzərinə düşdü. O dövrdə AXC - “Müsavat” iqtidarının səriştəsiz rəhbərliyi respublikamızı vətəndaş qarşıdurması, müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qoymuşdu.  Həmin böhranlı günlərdə xalq son ümidini sınanmış oğlu Heydər Əliyevə bağlayaraq təkidlə Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb etdi. Bütövlükdə Azərbaycanın inkişaf salnaməsini yazan Heydər Əliyev bu dəfə də xalqının yanında olmağa qərar verərək 1993-cü il iyunun 9-da Bakıya gəldi və çətin vəziyyətə düşmüş ölkəyə rəhbərlik etməyə başladı. Onun müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr tezliklə müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. Bəhs olunan tarixi dövrə ekskurs edən Prezident İlham Əliyev vurğulayıb: “Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı”.

**Milli maraqlarını qətiyyətlə qoruyan, dünya arenasında böyük hörmət qazanan müstəqil Azərbaycan**

Azərbaycanın ötən əsrin doxsanıncı illərinin əvvəlində bərpa olunan müstəqilliyinin yaşı elə də çox deyil. Ancaq bu qısa zaman kəsiyində ölkəmiz qərinələrə bərabər yol keçib. Təsadüfi deyldir ki, bu gün müstəqil Azərbaycan  zirvələrə yüksələn və möhtəşəm zəfərlər qazanan dövlət kimi səciyyələndirilir. Bunu şərtləndirən əsas amil isə Ulu Öndərin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirlməsidir. Müqayisələr apardıqda görürük ki, bəzi ölkələr de-yure müstəqilliklərini bəyan etsələr də, de-fakto öz məsələlərini həll etməkdə acizdirlər və başqa dövlətlərdən, güc mərkəzlərindən asılıdırlar. Azərbaycanın nümunəsi isə tamam fərqlidir. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi və uzaqgörənliyi sayəsində reallaşdırılan islahatlar ölkənin iqtisadi müstəqilliyini təmin edib. Bu gün Azərbaycan dünyada heç bir maliyyə mərkəzindən asılı deyil, bütün məsələlərini sırf öz gücünə həll etməyə qadirdir. Bu da siyasi müstəqilliyimizi şərtləndirir.

Müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı ən böyük uğur isə, heç şübhəsiz ki, öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsidir. Bu, Müzəffər Ordumuzun 2020-ci ildə  44 günlük Vətən müharibəsində və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror əməliyuyatında qazandığı şanlı qələbələr sayəsində mümkün olub. Bu zəfərlər son 200 illik tariximizin ən böyük qələbələridir və tariximizdə əbədi qalacaq. Artıq altıncı ildir ki, Azərbaycan müstəqillik gününü qalib dövlət kimi qeyd edir. Ölkəmiz 44 günlük müharibə başa çatandan dərhal sonra işğaldan azad edilmiş ərazilərin bərpasına və yenidən qurulmasına başlayıb. İcra olunan irimiqyaslı layihələr, Böyük Qayıdışın uğurla davam etdirilməsi və tarixi şəhərlərimizin qısa müddətdə məskunlaşdırlması müstəqil Azərbaycanın gücünün və əzminin təntənəsidir.

Müstəqil Azərbaycanın dünyada nüfuzunun getdikcə artması da son dərəcə qürurvericidir. Beynəlxalq birlik ölkəmizə və onun Liderinə böyük etimad bəsləyir və dərin hörmətlə yanaşır Bunu bu günlərdə Müstəqillik Günü münasibətilə  ayrı-ayrı ölkələrin dövlət və hökumət başçılarından Prezident İlham Əliyevin ünvanına gələn təbrik məktublarında ifadə olunan fikirlər  bir daha təsdiqləyir. Dövlət başçımıza dünya liderlərinin ünvanladığı təbrik məktublarında ölkəmizin regionda rolu yüksək qiymətləndirilir və gələcək əməkdaşlıq üçün münbit zəmin olduğu vurğulanır.

Belə təbrik məktublarından biri qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğandan gəlib. Məktubda vurğulanır ki, Türkiyə ilə Azərbaycan arasında öz gücünü tarixdən alan dərin köklü qardaşlıq və həmrəylik əlaqələri Ümummilli Lider Heydər Əliyevin bizə mirası olan “Bir millət, iki dövlət” prinsipi əsasında hər gün daha da güclənir. Türkiyə olaraq, güclü əlaqələrimiz əsasında qardaş Azərbaycanla bütün sahələrdə özünəməxsus sıx əməkdaşlığımızın və həmrəyliyimizin inkişafına davam edəcəyik.

Türkiyə və Azərbaycan dedikdə hər zaman sevincini və kədərini bir-biri ilə bölüşən iki qardaş dövlət və xalq başa düşülür. Müstəqilliyimizin möhkəmlənməsinə, uğurlarımızın artmasına ən çox sevinən də məhz qardaş Türkiyədir. “Zati-alinizin bacarıqlı liderliyi və uzaqgörən siyasəti sayəsində Can Azərbaycanın davamlı şəkildə güclənməsindən, regionda və beynəlxalq miqyasda nüfuzunun artmasından böyük qürur və iftixar hissi keçiririk”, - deyə R.T.Ərdoğan məktubunda vurğulayıb.

Müstəqillik Günü münasibətilə dövlətimizin başçısının ünvanına qonşu Rusiya Federasiyasının Prezidenti Vladimir Putindən gələn təbrik məktubunda da Azərbaycanın uğurlarına xüsusi diqqət çəkilib. Bildirlib ki, Azərbaycan iqtisadi və sosial sahələrdə böyük uğurlar əldə edib, dünya arenasında layiqli hörmət qazanıb. “Biz Bakı ilə dostluq və müttəfiqlik münasibətlərimizə böyük əhəmiyyət veririk. Əminəm ki, müxtəlif sahələrdə ikitərəfli səmərəli əməkdaşlığın, həmçinin regional və beynəlxalq məsələlərdə tərəfdaşlıq qarşılıqlı fəaliyyətinin birgə səylərlə daha da inkişafını təmin edə bilərik”, - deyə Rusiyanın dövlət başçısı bildirib.

Dünyanın güc mərkəzlərindən biri olan Çin Xalq Respublikasının Sədri Si Cinpindən gələn məktubda da səmimi fikirlər ifadə olunub. Məktubunda dövlətimizin başçısının şəxsində dost Azərbaycan xalqına ölkəmizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərini və ən xoş arzularını ifadə etməkdən şərəf duyduğunu bildirən Si Cinpin eyni zamanda Çin-Azərbaycan əlaqələrinin inkişafına böyük önəm verdiyini diqqətə çatdıraraq vurğulayıb: “Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. Bizim birgə planlaşdırmamız və rəhbərliyimiz ilə Çin-Azərbaycan münasibətləri yeni səviyyəyə yüksəlib, müxtəlif sahələrdə əməkdaşlıq böyük nəticələr verib. Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm, iki ölkənin xalqlarının rifahı naminə yüksək səviyyədə ikitərəfli əlaqələrin dinamikasının gücləndirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram”.

*Mübariz ABDULLAYEV*



# Prezidentin tapşırığı...

## Kənd təsərrüfatının inkişafı ilə bağlı yeni tədbirlər icra olunacaq

Mayın 25-də Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə aqrar sahənin inkişafı, məhsuldarlığın artırılması, subsidiyaların verilməsi, habelə qida təhlükəsizliyinin təmin olunması və ixrac potensialının genişləndirilməsi və digər məsələlər müzakirə olunub. Dövlət başçısı aqrar sahəni iqtisadiyyatın əsas sahələrindən biri kimi daim diqqətdə saxlanıldığını, 2004-cü ildən icra edilən regionların inkişaf proqramları çərçivəsində kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. Həmin proqramların uğurlu icrası nəticəsində regionlarda əsaslı şəkildə yenidən qurulan infrastrukturlar və kommunal xidmətlər kənd təsərrüfatının inkişafında da həlledici rol oynadı, bir çox istiqamətlər üzrə məhsullarını istehsalında böyük artım qeydə alındı. Eləcə də ötən illər ərzində üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq, digər istiqamətlər üzrə dövlət proqramlarının qəbulu və icrası aqrar sahənin inkişafını sürətləndirib. Dövlətin çoxçeşidli subsidiya mexanizmləri tətbiq etməsi və mülkiyyətçilərə güzəştli maliyyə dəstəkləri də bu artımın dayanıqlılığının təmin edilməsində mühüm rol oynayıb.

**Son 10 ildə kənd təsərrüfatında istehsal 37,8 faiz artıb**

2015-2025-ci illərdə kənd təsərrüfatı, balıqçılıq və aqrar-emal sahələrində davamlı inkişaf müşahidə olunub. Bu dövrdə kənd təsərrüfatı məhsulları istehsalı real olaraq 37,8 faiz artıb, o cümlədən bitkiçilik məhsulları istehsalı 48,2 faiz, heyvandarlıq məhsulları istehsalı isə 29,6 faiz yüksəlib. Balıqçılıq məhsullarının istehsalı 2,7 dəfə artıb. Qeyd olunan dövr ərzində aqrar-emal sənayesində yüksək artım qeydə alınıb. Xüsusilə qida, içki, tütün və toxuculuq sənayesində istehsal həcmləri əhəmiyyətli dərəcədə artıb. Aqrar sahədə həyata keçirilmiş dövlət dəstəyi tədbirləri nəticəsində pambıqçılıq, tütünçülük, üzümçülük və şərabçılıq kimi ənənəvi sahələrdə istehsal və ixrac potensialı böyüyüb. 2015-2025-ci illərdə ərzaq məhsullarının və içkilərin ixracı təxminən 62,8 faiz yüksəlib.. Eyni zamanda, bir sıra əsas məhsullar üzrə özünütəminetmə səviyyəsi yaxşılaşıb, meyvə-tərəvəz və yumurta üzrə tam özünütəminetmə səviyyəsinə nail olunub. Ət, süd, balıq və kartof məhsulları üzrə də özünütəminetmə səviyyəsində müsbət dinamika müşahidə olunub.

Son illərdə aqroparkların yaradılması, iri təsərrüfatçılıq modelinin inkişafı və kənd təsərrüfatında kooperasiya mexanizmlərinin təşviqi nəticəsində müasir texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və ixracyönümlü istehsal imkanları genişlənib. Aqrar sahədə istehsal, emal və logistika zəncirləri arasında inteqrasiyanın gücləndirilməsi əlavə dəyər yaradan fəaliyyətin inkişafına şərait yaradıb. 2025-ci ildə kənd təsərrüfatı istehsalı ümumdaxili məhsulun 5,9 faizini təşkil edib. Qeyri-neft ümumi daxili məhsulunda isə 8,3 faiz paya malik olub. Ötən il aqrar sahədə toplam məhsul istehsalın nominal dəyəri 14 milyard manata çatıb.

**Dünyada baş verən meyillər kənd təsərrüfatının istehsalına mənfi təsir göstərir**

Göründüyü kimi Azərbaycanda kənd təsərrüfatı inkişaf edərək, qeyri-neft iqtisadiyyatının mühüm sahələrindən birinə çevrilib. Habelə, aqrar sektorda həyata keçirilən islahatlar və yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərib. Bu çərçivədə elektronlaşmanın tətbiqi, dövlət xidmətlərinin optimallaşdırılması, eləcə də səmərəli idarəetmə sisteminin qurulması aqrar sahədə keyfiyyət dəyişikliyini şərtləndirib və emal sənayesinin güclənməsi üçün əlverişli imkanlar yaradıb.

Ancaq bütün bunlarla yanaşı, kənd təsərrüfatı yeni iqtisadi artım dinamikasının templərindən geri qalır. Cənab Prezident bu məsələyə diqqət çəkərək vurğuladı ki, ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir. Ələlxüsus da dünyada ərzaq təhlükəsizliyi məsələsinin xüsusi ön plana keçdiyi bir şəraitdə aqrar sahədə dayanıqlı inkişafın təmin olunması ən aktual çağırışdır: "Bu gün dünyada gedən meyillər kənd təsərrüfatının istehsalına da mənfi təsir göstərir. Müharibələr, münaqişələr, nəqliyyat zəncirlərinin qırılması, enerji sektorundakı böhran, yanacaqla bağlı olan müəyyən çətinliklər bir çox ənənəvi istehsalçıları çətin vəziyyətə qoymuşdur. Bunu nəzərə alaraq, əlbəttə ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyi haqqında düşünməlidir və konkret addımlar atmalıdır".

**Ərzaq məhsulları ilə özünü təmin etmə əmsalı fərqlidir**

Azərbaycanın qida məhsulları ilə özünü təmin etmə əmsalı bəzi məhsullar üzrə tam tələbatı ödəyir, bəziləri üzrə 70-80 faiz nisbətindədir, bəziləri üzrə isə 60 faizdən aşağıdır. Müşavirədə səsləndirilən rəqəmlərdən də aydın olur ki, ən strateji məhsul olan ərzaq buğdası ilə təminat yüksək deyil və tələbatın təxminən yarısı idxal hesabına təmin edilir: "Biz cəmi 55 faiz səviyyəsində özümüzü buğda ilə təmin edirik və əfsuslar olsun ki, bu əmsal artmır. Biz elə yerində sayırıq. Neçə ildir ki, bizdə elə bu səviyyədə buğda istehsal olunur, baxmayaraq çox böyük təkan verilmişdir, bir çox aqroparklar yaradılmışdır. Onu da bildirməliyəm ki, aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında çox böyük rol oynamışdır. Buna baxmayaraq, buğda istehsalı və onun özünü təminetmə əmsalı bizdə artmır. Daxili istehsal 1 milyon 573 min ton, idxal 1 milyon 267 min ton. Bax, bu idxalı biz azaltmalıyıq. Təbii ki, bizim coğrafiyamızı nəzərə alaraq, əkin sahələrini nəzərə alaraq, digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, biz hədəf qoymalıyıq ki, 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edək. Ancaq hər halda 55 faiz qəbuledilməz rəqəmdir və bu, mütləq artmalıdır."

Eləcə də, bitki yağları və kərə yağı üzrə də təminetmə əmsalı təxminən 60 faiz həddindədir və idxaldan asılılıq çoxdur. Məhz bu nöqteyi-nəzərdən həmin əsas qida mallarının istehsal zəncirinin qurulması üçün davamlı tədbirlərə ehtiyac var. Su və torpaq resurslarından səmərəli istifadə də aqrar sahənin inkişafının mühüm amillərdən biridir. Su itkisinin qarşısının alınması məqsədilə müasir suvarma sistemlərinin (yağışdırma və damlama) tətbiqinin genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə yeni su anbarlarının və infrastrukturun qurulması bu istiqamətdə görüləcək işlərdən biri kimi qarşıda durur. Torpaqlardan səmərəli istifadə aqrar inkişafın ən vacib elementlərindən biridir. Yeni ssenarilərə əsasən, məhsuldarlığı maksimum artırmaq və torpaqların dəqiq analizi aparılacaq ki, məqsəd hansı ərazidə hansı torpaq sahəsində hansı məhsulun yetişdirilməsinin daha məqsədəuyğun olmasını müəyyənləşdirməkdir. Burada rayonlaşma məsələləri də nəzərdən keçiriləcək, hansı rayonda hansı məhsulun yetişdirilməsi daha faydalıdır, daha çox məhsuldardır, bu təhlil əsasında yeni istehsal xəritəsi hazırlanacaq. Eləcə də, innovasiyaların tətbiqi, rəqəmsallaşma, Elektron Kənd Təsərrüfatı sisteminin inkişafı və yüksək məhsuldar toxum və cins heyvanların istifadəsi də intensiv inkişafa mühüm təsir göstərir. Ona görə də, sahələrarası təhlillər aparılarkən onun elektron resurslara, yeni texnologiyalardan istifadəyə üstünlük veriləcək, süni intellekt, peyk imkanları əsasında planlaşdırma həlləri işləniləcək.

Kənd təsərrüfatı texnikası ilə təminat, gübrə istehsalının artırılması da ən zəruri faktorlardan sayılır. Xüsusilə də, son aylarda dünyada gübrə tədarüklərində yaranan böhranlar Azərbaycanın bu sahəyə diqqətini daha da artırıb. Ölkəmizdə fəaliyyət göstərən Karbamid zavodu yerli tələbatı ödəyir, həttə bir çox ölkənin azot gübrələri ilə təminatında rol oynayır. Ancaq bu, cəmi bir növ gübrədir və aqrar sahədə bir çox növ gübrələr tələb olunur. Bu baxımdan gübrə istehsalı çeşidinin artırılması və qarışıq gübrə istehsalı kompleksinin yaradılması üçün xarici şirkətlərlə müzakirələr aparılır.

**Torpaqlardan səmərəli istifadə, dayanıqlı su təchizatı**

Dayanıqlı su təchizatı olmadan kənd təsərrüfatının inkişafı mümkün deyil. Hazırda icra edilən önəmli layihələr, su anbarlarının tikintisi və yenidən qurulması, habelə Qarabağ və Şərqi Zəngəzurda su anbarlarının bərpası və inşası su təminatı üçün böyükhəcmli resurs bazası formalaşdıracaq. Təkcə, azad ərazildəki bərpa edilən anbarlar, xüsusilə də Sərsəng və Suqovuşan su anbarları Qarabağın hüdudlarından kənarda olan 7-8 rayonu da su ilə təmin edəcək, digər kanalın tikintisinin yekunlaşması isə 8 rayona, təqribən 100 min hektar torpağa su verilməsində mühüm rol oynayacaq. Həmçinin, yenidən qurulan Şirvan və Qarabağ kanalının bərpasının başa çatdırılması sayəsində 200-300 min hektar torpağa su veriləcək.

Müşavirədə bu məsələlərin hər birinə ayrıca toxunuldu, dövlət başçısı, həmçinin, subsidiya və güzəştli maliyyələşmə mexanizminin təkmilləşdirilməsinə dair müvafiq qurumlara tapşırıq verdi.

Rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının emalı sənayesinin genişləndirilməsi və istehsalın dəyər zəncirinin həlqələri üzrə artırılması məqsədilə istehsalçıların müvafiq resurslara, o cümlədən əlverişli maliyyə resurslarına asan çıxışının təmin edilməsi, bazar infrastrukturunun və aqrar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində işlərin sürətləndirilməsi də müasir çağırışlardan biridir. Bundan başqa, intensiv bağçılığın genişləndirilməsi, o cümlədən azad edilmiş torpaqlarda salınan meyvə bağlarının sahəsinin artırılması, bölgələrdə yeni meyvə təsərrüfatlarının, istixana komplekslərinin yaradılması əsas prioritetlərdəndir.

**Xarici investorlara mesaj: Azərbaycanda sağlam sərmayə mühiti təmin edilib**

Dövlət başçısı ölkəmizdə təmin edilmiş əlverişli investisiya mühiti şəraitində sərmayə qoyuluşlarının artırılması üçün təşviqedici siyasətin davam etdiriləcəyini də xatırlatdı. Xüsusilə də, xarici sərmayələrin cəlb olunması, o cümlədəm əsas prioritet sahə olan qeyri-neft sektoruna cəlb edilməsi üçün həyata keçirilən bir çox təşviq layihələrinin bu istiqamətdə mühüm rol oynaycağına əminlik ifadə edildi. Ölkəmizdə təmin edilmiş sağlam investisiya mühiti xarici investorların fəaliyyətinə əlverişli zəmanət verir: "Biz xarici investorları da həm məlumatlandırmalıyıq, həm də təşviq etməliyik. Çünki bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bizim dünya miqyasında çox yüksək reputasiyamız var, çox müsbət imicimiz var. Azərbaycan artıq dünyada orta gücə malik olan dövlət kimi tanınır və bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər. Biz, əlbəttə ki, bütün şirkətlərə, o cümlədən xarici investorlara qanun çərçivəsində lazımi şərait yaradırıq. Ancaq, eyni zamanda, biz xarici şirkətləri bizə lazım olan sahələrə cəlb etməliyik. Ona görə burada səsləndirəcəyim rəqəmlər həm yerli, həm xarici investorlara bir mesajdır".

**Yerli istehsalın artırılması, ixrac coğrafiyasının genişləndirilməsi**

Qarşıda duran ümdə vəzifələrdən biri ixrac məhsullarının həm çeşidinin, həm də coğrafiyasının şaxələndirilməsidir. Bu məqsədlə ənənəvi bazarlarla yanaşı, yeni bazarlara çıxış üçün imkanların da artırılması qarşıda duran vacib məsələlərdən biridir. Tərəfdaş ölkələrlə bu məsələlər də müzakirə ediləcək. Həmçinin, qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə və "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi üçün müxtəlif tədbirlərin görülməsi nəzərdə tutulur.

Azərbaycan iqtisadiyyatının yeni situasiyada və hazırkı şərait ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafını təmin etmək, insan kapitalından səmərəli istifadə etmək kimi prioritetlər ön plana çəkilməsini zəruri edir. Eyni zamanda, ölkəmizin sənaye potensialının artırılması, bölgələrdə sənaye zonalarının, fermer təsərrüfatlarının yaradılması prosesinin aparılması, aqrar sahəyə dövlət dəstəyinin artırılması istiqamətində digər layihələrin həyata keçirilməsinin zəruriliyi qarşıya məqsəd qoyulub. Bütün bu kompleks və sistemli tədbirlərin həyata keçirilməsi üçün 2026-2030-cu illərə dair kənd təsərrüfatının yeni inkişaf proqramı icra ediləcək. Proqramda dövlət maliyyə təchizatçısı çıxış edəcək və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün 2 milyard manatdan çox vəsait proqnozlaşdırılır. Ancaq özəl sektorun da üzərinə böyük yük düşəcək, özəl sektorun payı isə təqribən 3 milyard manatdan çox olacaq.

Beləliklə, Prezident İlham Əliyevin müşavirədə iqtisadiyyatın və aqrar sahənin yeni inkişaf hədəfləri ilə bağlı fikirləri kənd təsərrüfatı sahəsində konkret istiqamətlərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və yol xəritəsi hesab edilə bilər. Bu proqram xarakterli çıxış qarşıda duran yeni tədbirlərin ssenarilərini, atılacaq addımların hədəflərini özündə əks etdirir. Bu istiqamətlər aqrar sahədə əlavə tədbirlərin icrası ilə yanaşı, biznes mühitinin yaxşılaşdırılması və sahibkarlara yeni maliyyə dəstəklərinin göstərilməsi, xarici investisiyaların cəlb edilməsi, daxili bazarın qorunması və milli istehsalın böyüməsi üçün mühüm prioritetlərə nail olmağa imkan verəcək.

*E.CƏFƏRLİ*

# Siyasi varislik dövlət müstəqilliyinin qorunmasının əsas amili kimi

Azərbaycan dövlət müstəqilliyinin bərpası və qorunmasında Ulu öndər Heydər Əliyevin rolu, onun siyasi kursunun davamı kimi isə Prezident İlham Əliyevin müasir dövrdə əldə etdiyi nailiyyətlər Azərbaycan dövlətçiliyi tarixində bir-birini tamamlayan, üzvi surətdə bağlı olan iki mərhələni təşkil edir. Bu iki liderin bu istiqamətdəki fəaliyyətinin həm tarixi, həm siyasi planda paralel şəkildə təhlili Azərbaycanda siyasi varisliyin uğur formulunu açmağa imkan yaradır.



**Heydər Əliyev və dövlət müstəqilliyinin xilası**

Ciddi işgüzar keyfiyyətlər tələb edən fenomenal iş üslubu Heydər Əliyevin hələ Sovetlər Birliyi dövründən bəri topladığı zəngin idarəçilik təcrübəsinə söykənirdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövr - 1969-1982-ci illər müasir Azərbaycanın inkişaf tarixinə ilk dönüş mərhələsi kimi yazılmışdır. Belə ki, məhz həmin illərdə müəyyənləşmiş fundamental strateji istiqamətlər sonrakı müstəqillik dövrünün sosial-iqtisadi bazasına çevrildi.

Bu tarixi reallıqlar Heydər Əliyevin gəldiyi nəticənin inkarolunmaz həqiqət olduğunu bir daha sübut edir: "Azərbaycanın Sovet dövründə inkişafının ən barız nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır".

1991-ci ildə SSRİ-nin süqutu nəticəsində Azərbaycan formal olaraq dövlət müstəqilliyini bərpa etsə də, ölkə daxilindəki siyasi xaos, iqtisadi tənəzzül, separatizm təhlükəsi və xarici təzyiqlər dövlətçiliyin real məzmun qazanmasına imkan vermirdi. Belə ki, yeni müstəqilliyin ilk illərində Qarabağ müharibəsi get-gedə daha da şiddətlənir, torpaq itkiləri artırdı. Daxildə hakimiyyət böhranı, tez-tez dəyişən siyasi komandalar cəmiyyətdə inamsızlıq yaradırdı. Ayrılma meyilləri güclənmiş, ölkənin parçalanma təhlükəsi yaranmışdı.

Belə bir şəraitdə 1993-cü ildə hakimiyyətə xalqın tələbi ilə qayıdan Heydər Əliyev faktiki olaraq Azərbaycan dövlətini dağılmaqdan xilas edən şəxsə çevrildi. Onun rolunu bir neçə əsas istiqamətdə qeyd etmək olar. Birincisi, silahlı toqquşmaların, qiyam cəhdlərinin qarşısının alınması, mərkəzi hakimiyyətin möhkəmləndirilməsi, həmçinin hakimiyyətin legitimliyinin bərpası və dövlət institutlarının ardıcıl formalaşdırılması nəticəsində dövlətçilik və siyasi sabitliyin bərpasına nail olundu.

Bundan sonra hüquqi dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı.1995-ci ildə yeni Konstitusiyanın qəbulu ilə Azərbaycan müstəqil, unitar, demokratik və hüquqi dövlət kimi öz inkişaf modelini müəyyənləşdirdi. Bu sənəd dövlətin siyasi sistemini, hakimiyyət qollarının bölgüsünü, insan hüquq və azadlıqlarının hüquqi təminatını müəyyən edərək müstəqilliyin hüquqi bazasını yaratdı.

Çox mürəkkəb geosiyasi şəraitdə Ulu Öndər müharibə və təhlükəsizlik məsələlərində dəqiqliklə düçünülmüş strateji yanaşmasını və dövlət təlükəsizliyi məsələlərinə praqmatik baxışlarını ortaya qoyaraq Qarabağ münaqişəsinin həllində bütün müstəvilərdə Azərbaycanın üstün mövqeyə çıxarılmasına nail oldu. Atəşkəsin əldə olunması ilə Azərbaycan tam məğlub olmaqdan və daha böyük itkilərdən qorundu.Ordu quruculuğu və milli təhlükəsizlik konsepsiyasının formalaşdırılmasına başlanıldı. Beynəlxalq aləmdə Azərbaycanla bağlı mövqelərin dəyişməsi üçün siyasi-diplomatik zəmin yaradıldı.

1994-cü ildə imzalanmış və Azərbaycanın neft strategiyasının əsasını formalaşdıran "Əsrin müqaviləsi" təkcə iqtisadi müstəqilliyi təmin edən transmilli layihə deyil, həm də siyasi akt idi. Belə ki, bu müqavilə gənc respublikanın dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirdi və ölkənin enerji resursları üzərində suverenliyini möhkəmləndirdi. Bununla da yaranmış yeni geosiyasi balans Azərbaycanın beynəlxalq əhəmiyyətinin artırılmasına müstəsna töhfə vermis oldu.

Bütövlükdə Azərbaycanda müstəqillik ideologiyasının formalaşması Ümummilli Liderimizin böyük tarixi nailiyyətidir. Çünki Heydər Əliyev öz faliyyətini təkcə siyasi idarəçi kimi yox, həm də müstəqillik fəlsəfəsinin müəllifi kimi qururdu. Onun siyasətində azərbaycançılıq ideologiyası, milli-mənəvi dəyərlərin qorunması və inkişafı, diaspora iş və beynəlxalq mühitdə Azərbaycan həqiqətlərinin təbliği mühüm yer tuturdu.

Bu baxımdan Heydər Əliyev dövlət müstəqilliyini sadəcə bərpa etmədi, onu geri dönməz tarixi reallığa çevirmək üçün həm siyasi, həm hüquqi, həm də ideoloji əsaslar yaratdı. Bu tarixi nailiyyətin dəyərini 1918-ci ildə yaradılmış və 23 ay sonra süquta uğramış Azərbaycan Xalq Cümhuriyyətinin zəif dövlətçilik və uğursuz təcrübəsi, həmçinin 1991-ci ildə də tarixin sanki yenidən təkrarlanması ilə müqayisəli paralellər müstəvisində dəyərləndirmək yerinə düşür. Bu taleyüklü tarixi hadisələr gələcək nəsillər üçün mühüm dərsdir: müstəqillik yalnız elan edilməklə deyil, güclü idarəçilik və dövlətçilik, sabitlik və milli birlik əsasında qoruna bilir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında Ulu Öndərin siyasi portreti bu prizmadan belə təsvir olunur: "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir... Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".

**Yeni mərhələdə müstəqil dövlətin uğurlu inkişafı**

2003-cü ildə Prezident seçilən cənab İlham Əliyev Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu yeni tarixi şəraitə uyğun olaraq davam etdirməyə və inkişaf etdirməyə müvəffəq olmuşdur. Ötən dövr artıq böhran və parçalanma təhlükəsi mərhələsindən sabitlik, modernləşmə və güclənmə mərhələsinə keçid kimi xarakterizə oluna bilər.

Bu illər ərzində dünyaya islahatçı lider obrazını uğurla təqdim edən Prezident İlham Əliyevin nailiyyətlərini bir neçə əsas istiqamətdə ümumiləşdirmək olar. İlk növbədə neft gəlirlərinin idarə olunması, geniş miqyaslı infrastruktur layihələri, regionların sosial-iqtisadi inkişaf proqramları, iqtisadiyyatın neftdən asılılığının azaldılması istiqamətində sənaye, kənd təsərrüfatı, xidmət sektorunun inkişafı ölkənin iqtisadi inkişaf və modernizasiya konsepsiyasının əsasını təşkil edir. Məhz bu müdrik siyasət nəticəsində Azərbaycan bu gün regionun aparıcı iqtisadi güclərindən birinə çevrilmişdir.

Respublikaya rəhbər seçildiyi gündən ordu quruculuğunu və hərbi-siyasi gücün artırılmasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirən cənab İlham Əliyev orduya və təhlükəsizliyə ayrılan vəsaitlərin artırılmasına, texniki-modern səviyyədə silahlanmasına xüsusi diqqət ayırır. Bu dövr ərzində dünya standartlarına uyğun milli hərbi-sənaye kompleksinin yaradılması, orduda peşəkarlığın, intizamın və döyüş qabiliyyətinin yüksəldilməsi ilk növbədə Azərbaycanın başı üzərində 30 il ərzində işğal bəlası kimi duran Qarabağ münaqişəsinə son qoymaq məqsədindən qaynaqlanmışdır. Bu prosesin məntiqi nəticəsi kimi 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, 2023-cü ildə isə dövlət suverenliyini bütün ərazilərində tam təmin etdi. Bununla da Heydər Əliyevin "müstəqilliyi qoruma" xətti İlham Əliyevin dövründə "müstəqilliyi gücləndirən qələbə" mərhələsinə keçdi.

**Xarici siyasət və beynəlxalq mövqe kontekstində Prezident**

İlham Əliyevin balanslaşdırılmış, çoxvektorlu xarici siyasət kursuna nəzər yetirsək, bir daha əmin olarıq ki, son 23 il ərzində Azərbaycanın beynəlxalq nüfuzu müqayisəsiz dərəcədə artmış, ölkəmiz beynəlxalq enerji və nəqliyyat layihələrinin mərkəzinə çevrilmişdir. Qoşulmama Hərəkatına sədrlik, beynəlxalq tədbirlərə ev sahibliyi vasitəsilə Azərbaycanın qlobal siyasi sistemdə rolunu gücləndirmişdir. Bu günlərdə Bakıda təşkil olunmuş və 182 ölkəni təmsil edən 45 mindən artıq iştirakçının qatıldığı Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF-13) uğurlu yekunu söylənənlərin daha bir bariz nümunəsidir.

Daxili sabitlik və əhalinin yüksək rifahına hədəflənən sosial siyasət gənc müstəqil dövlət kimi formalaşmasında mühüm amildir. Bu gün məhz bu siyasət nəticəsində dövlət müstəqilliyinin yalnız formal deyil, real sosial məzmun daşıması təmin olunmaqdadır.

**Siyasi varisliyin təntənəsi**

Bu günlərdə ölkə ictimaiyyətinin təntənə ilə qeyd edəcəyi dövlət müstəqilliyimizin 106-cı ildönümü prizmasından Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin siyasi fəaliyyətinə nəzər salarkən aralarında həm tarixi varislik, həm də siyasi paralellər aydın görünür. Heydər Əliyev müstəqilliyin təməlini qoyan, onu xaos və parçalanma təhlükəsindən xilas edən, hüquqi-siyasi və ideoloji sütunlarını formalaşdıran lider kimi tarixə düşüb. Cənab İlham Əliyev isə bu təməllər üzərində müstəqil Azərbaycanı güclü, qalib və nüfuzlu regional aktor səviyyəsinə yüksəldən, ərazi bütövlüyünü və suverenliyini faktiki təmin edən lider kimi çıxış edir. Bu paralellər həm də onu göstərir ki, Azərbaycan dövlətçiliyi ardıcıl, məqsədyönlü və strateji düşünülmüş bir xətt üzrə inkişaf etməkdədir.



***Əli Hüseynli,***
***Milli Məclisin deputatı***

# Siyasi partiyaların inkişafına dövlət tərəfindən diqqət artırılır

## Prezident Administrasiyasında VHP sədri Sabir Rüstəmxanlı ilə görüş keçirilib



Vətəndaş Həmrəyliyi Partiyasının Mətbuat xidmətinin bildirdiyinə görə cari ilin 25 may tarixində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Partiyanın sədri Sabir Rüstəmxanlı ilə görüşmüşdür. Görüşdə Partiya sədrinin müavini, Milli Məclisin deputatı Tənzilə Rüstəmxanlı da iştirak etmişdir.

Ölkədə siyasi dialoq mühitinin təşviq olunması ilə bağlı dövlətin təşəbbüsləri və bu cür təşəbbüslərdə siyasi partiyalara ayrılmış rol, sağlam siyasi mühitin yaradılması prosesinin zərurəti, milli maraqların toxunulmazlığı naminə əməkdaşlıq, milli həmrəyliyin təminatında, habelə dayanıqlı demokratik ənənələrin inkişafında siyasi partiyaların rolu, o cümlədən ölkə həqiqətlərinin təbliğində ziyalıların rolu kimi məsələlər görüş zamanı geniş müzakirə olunmuşdur.

Siyasi partiyaların inkişafına ölkə rəhbərliyi tərəfindən ayrılan xüsusi diqqətin əhəmiyyətini qeyd edən Partiya sədri bildirmişdir ki, yaradılmış mühit cəmiyyətdə olan potensialların səfərbər olunmasında müstəsna rola malikdir. Mövcud istiqamətə verilmiş ən kiçik töhfənin böyük nəticələrə səbəb olduğunu bildirən S.Rüstəmxanlı gənc nəslin də bu proseslərə cəlb olunmasının vacibliyini qeyd etmişdir.

S.Rüstəmxanlı rəhbərlik etdiyi Partiya tərəfindən həyata keçirilən layihələrdə dövlətin dəstəyini hər zaman gördüyünü və buna görə də ölkə rəhbərliyinə minnətdar olduğunu qeyd etmişdir. Görüşdə həmçinin Vətən müharibəsində qazanılmış böyük Zəfərdən sonra cəmiyyətdə yaşanan milli birliyin bundan sonra da qorunmasında siyasi partiyaların rolu bir daha qeyd olunmuşdur.

Sabir Rüstəmxanlı Prezident İlham Əliyev tərəfindən "Şərəf" ordeni ilə təltif olunmasına görə öz dərin təşəkkürünü bildirmiş və qeyd etmişdir ki, sözügedən fakt ölkə rəhbərliyinin mədəniyyətin, ədəbiyyatın və incəsənətin inkişafına müstəsna diqqətinin təcəssümüdür.

Prezident Administrasiyasının rəsmisi milli maraqların qorunması yolunda Vətəndaş Həmrəyliyi Partiyasına uğurlar arzulamışdır.

# Milli Məclisin yaz sessiyası başa çatıb

## Prezident və Birinci xanıma Müstəqillik Günü və Qurban bayramı münasibətilə təbrik ünvanlanıb



Mayın 26-da spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib.

Spiker deputatlara ötən iki həftəyə yaxın dövrdə Milli Məclis sədrinin başçılığı ilə parlament nümayəndə heyətlərinin iki səfəri barədə qısa məlumat verib. O, bildirib ki, mayın 14-də Özbəkistan Respublikasının Buxara şəhərinə işgüzar səfərdə məqsəd İkinci Asiya Qadınlar Forumunda iştirak etmək idi. Spiker deyib ki, o, Forumda etdiyi çıxışda Azərbaycan qadınlarının ölkə həyatında fəal roluna dair tədbir iştirakçılarına məlumat verib.

Spiker deyib ki, Forumdakı çıxışında xüsusi olaraq vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın geniş ictimai və siyasi fəaliyyəti Azərbaycan qadınlarının cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi mühüm töhfəni əks etdirir. Onun fəaliyyəti qadınların ictimai həyatda artan rolunu aydın şəkildə nümayiş etdirir və dövlət idarəçiliyinin ən yüksək səviyyəsində qadın liderliyinin güclü nümunəsi kimi çıxış edir.

Spiker mayın 20-dən 22-dək Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyətinin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri barədə məlumat verib. O, deyib ki, səfərdə məqsəd MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şura iclasında və altmışıncı plenar iclasında iştirak etmək idi.

Spiker bildirib ki, o, həm Şura iclasında, həm də plenar iclasda çıxış edib. Milli Məclisin sədri Şura iclasında müzakirə edilən məsələlər barəsində Azərbaycan parlamentinin mövqeyini iştirakçılara çatdırıb.

Assambleyanın iclası çərçivəsində Milli Məclis sədrinin müavini Ziyafət Əsgərova "Parlament əməkdaşlığının möhkəmləndirilməsinə görə" medalı təqdim olunub.

Milli Məclisin plenar iclasında 13 məsələ müzakirə edilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bu komitənin 2025-ci ildə fəaliyyəti haqqında məlumatı slaydlar vasitəsi ilə təqdim edib. Komitə sədri ötən il ölkə Prezidenti tərəfindən təsdiq edilmiş, "Gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nın bu sahədə yeni mərhələ açdığını vurğulayıb. Fəaliyyət Planında qadınların sosial-iqtisadi fəallığının artırılmasının, təhsildə və əmək bazarında bərabər imkanların genişləndirilməsinin, iqlim və rəqəmsal transformasiya proseslərində gender yanaşmasının gücləndirilməsinin prioritet istiqamətlər kimi müəyyən edildiyini söyləyib. O, qeyd edib ki, hesabat dövründə gender bərabərliyi siyasəti üzrə qanunvericilik təkmilləşdirilmiş, institusional mexanizmlər daha sistemli xarakter almış, fəaliyyətin məzmunu daha çox insan mərkəzli və nəticəyönümlü mərhələyə keçmişdir. Dünya Bankının "Women, Business and the Law" hesabatında da Azərbaycanın göstəricisinin 78,8-dən 85-ə yüksəlməsi həyata keçirilən islahatların beynəlxalq miqyasda da tanındığını təsdiqləyir.

Sonra parlamentin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb. Komitə sədri Azərbaycanda dövlət qadın siyasətinin, gender bərabərliyinin təmin edilməsinin hər zaman prioritet məsələlərdən olduğunu qeyd edib. O, vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə ölkəmizdə güclü hüquqi qanunvericilik bazası əsasında qadınlar üçün bərabər imkanların yaradılması və sosial həyatın bütün sahələrində onların aktiv iştirakı üçün mühüm işlər görülür. Qeyd edilib ki, Parlamentin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyətinin iştirakı ilə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun icrası ilə bağlı davamlı iclaslar, görüşlər keçirilir, müzakirələr aparılır.

Məsələ ətrafında müzakirələrdə parlamentin komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, deputatlar Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Rizvan Nəbiyev, Məlahət İbrahimqızı, Ceyhun Məmmədov, Əli Məsimli, Elnarə Akimova, Azay Quliyev, Azər Allahverənov, Aydın Mirzəzadə, Tənzilə Rüstəmxanlı çıxış edərək, təqdim edilən sənəddə ölkəmizdə gender bərabərliyinin təmin edilməsi sahəsində görülmüş işlər barədə geniş, əhatəli məlumatların verildiyini söyləyiblər, Dövlət Komitəsi tərəfindən həyata keçirilən işləri müsbət dəyərləndiriblər. Millət vəkilləri bəzi qeyd və təkliflərini də səsləndiriblər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qaldırılan məsələlərə münasibət bildirib.

Müzakirələrin yekununda Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2025-ci ildə fəaliyyəti haqqında məlumatı nəzərə alınıb.

Sonra Milli Məclisin sədri bildirib ki, gündəliyin növbəti 6 məsələsi Prezidentin təqdimatları əsasında bir sıra məhkəmələrin hakimlərinin təyin və vəzifədən azad edilməsi ilə bağlıdır. İclasda parlamentin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi, N.T.Əliyevin Gəncə Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi, B.M.Məmmədovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi, Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi, Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında məsələlər barədə məlumat verib.

İclasda təqdim olunan 6 məsələ üzrə Milli Məclisin qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin növbəti 4 məsələsinin üçüncü oxunuşda baxılan qanun layihələri olduğunu bildirib. O, qeyd edib ki, 8-ci və 9-cu məsələlər Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyət etibarilə bir-biri ilə bağlıdır.

Spiker diqqətə çatdırıb ki, 8-ci məsələ "Maliyyə icarəsi haqqında", 9-cu məsələ isə Mülki Məcəllədə, Vergi Məcəlləsində, Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələridir.

İclasda "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş), "Vətəndaşların müraciətləri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) qəbul edilib.

"Diplomatik xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) qəbul edilib.

Sonra Milli Məclisin sədri bildirib ki, bu gün yaz sessiyasının son iclasıdır. Spiker yaz sessiyasının yekunları barədə məlumat verərək deyib ki, sessiya ərzində parlamentin 15 iclası keçirilib, 57 qanun və 19 qərar qəbul edilib.

Sonra Milli Məclisin sədri Qurban bayramı və Müstəqillik Günü münasibəti ilə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlanmasını təklif edib. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışına yekun vuran spiker Sahibə Qafarova Qurban Bayramı və Müstəqillik Günü münasibəti ilə deputatlara və parlamentin fəaliyyətini işıqlandıran media nümayəndələrinə də təbriklərini çatdırıb. O, Milli Məclisin yaz sessiyasının uğurla başa çatması ilə əlaqədar səmərəli iş üçün deputatlara təşəkkür edib və Milli Məclisin yaz sessiyasını bağlı elan edib.

Sonra iclasda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Beləliklə də Milli Məclisin yaz sessiyası başa çatıb.

# Aqrar sektorun yeni inkişaf prioritetləri



Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncama əsasən, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Proqram 2026-2030-cu illərdə aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsini, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini, aqrar sahədə dəyər zəncirlərinin inkişaf etdirilməsini, fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur. Dövlət Proqramında aqrar sahənin resurs təminatının gücləndirilməsi, su və torpaq ehtiyatlarından səmərəli istifadənin təşviqi, aqrar təhsil, elm və innovasiya sahələrinin inkişaf etdirilməsi, aqrar-emal və logistika infrastrukturunun genişləndirilməsi, subsidiya və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, rəqəmsallaşma təşəbbüslərinin dəstəklənməsi, habelə balıqçılıq və akvakultura sahəsində institusional və istehsal potensialının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi müəyyən edilib.

## Kənd təsərrüfatının inkişafına dair Dövlət Proqramı qəbul edilib

**İqlimə davamlı istehsal zəncirinin qurulması**

Dövlət Proqramında ən strateji məqsədlərdən biri ərzaq təhlükəsizliyi sisteminin gücləndirilməsidir. Xüsusilə də, qlobal meyillər ərzaq sistemlərinin uzunmüddətli dayanıqlı inkişafı baxımından bir sıra çağırışları meydana çıxarır. İqlim dəyişikliklərinin təsirinin güclənməsi və su resursları üzrə təzyiqlərin artması resurslardan daha səmərəli istifadəni, iqlimə davamlı aqrar istehsal modelinə keçidi və məhsuldarlığın yüksəldilməsini zəruri edir. Qlobal ərzaq bazarlarında qeyri-sabitlik və təchizat zəncirlərində risklərin artması daxili ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini strateji zərurətə çevirir. Bu baxımdan, yüksək məhsuldarlığa malik, əlavə dəyər və ixracyönümlü inkişaf modelinə keçidin təmin edilməsi zəruridir.

Aqrar sahədə inkişafın əsas mənbəyi məhsuldarlıq, texnologiya və innovasiya əsaslı intensiv inkişaf sxeminə əsaslanır. Bu məqsədlə kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrində resurslardan səmərəli istifadəyə əsaslanan müasir və iqlimə davamlı istehsal modelinin formalaşdırılması, aqrar-emal və logistika infrastrukturunun inkişaf etdirilməsi, eləcə də ərzaq təhlükəsizliyinin və ixrac potensialının gücləndirilməsi istiqamətində kompleks və əlaqələndirilmiş dövlət siyasətinin davam etdirilməsi nəzərdə tutulur.

**ABŞ, Almaniya, Yaponiya, Niderland modelinə keçid**

Müəyyən edilmiş hədəflər və tədbirlər qabaqcıl aqrar təcrübə və modellərə əsaslanır. Qabaqcıl beynəlxalq təcrübə göstərir ki, aqrar sahədə dayanıqlı inkişafın təmin olunması, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və rəqabətqabiliyyətliliyin artırılması məqsədilə məhsuldarlığın yüksəldilməsi, rəqəmsal transformasiya, dəyər zənciri yanaşmasının inkişaf etdirilməsi, iqlimə uyğun və resursqoruyucu texnologiyaların tətbiqi əsas inkişaf istiqamətlərinə çevrilib. Bu məqsədlə beynəlxalq meyillər aqrar və ərzaq sistemlərinin transformasiyası üzrə müasir yanaşmalar tətbiq olunacaq. Niderland, Danimarka və Almaniya kimi ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışının vahid dəyər zənciri əsasında təşkilinə üstünlük veriləcək.

İntensiv və yüksək məhsuldarlığa əsaslanan istehsal modelinə keçid zamanı İsrail və ABŞ kimi ölkələrdə innovativ texnologiyaların və resurs qoruyucu yanaşmaların tətbiqi əsas götürüləcək. ABŞ, Yaponiya və Cənubi Koreyada tətbiq olunan rəqəmsal və "ağıllı kənd təsərrüfatı" həlləri də əsas yanaşmalardan biri olacaq. Həmin ölkələrdə geniş istifadə olunan sensor sistemləri, aqrodronlar, peyk müşahidə texnologiyaları və süni intellekt əsaslı idarəetmə həlləri öləmizin aqrar sektoruna gətiriləcək.

**Yeni bitki yağı emalı zavodları yaradılacaq**

Su və torpaq resurslarının dayanıqlı idarə olunması və aşağı karbonlu istehsal modelinə keçid zamanı isə İsrail, Avstraliya və Avropa İttifaqı ölkələrində mövcud olan layihələrə istinad ediləcək. Həmin model suvarma səmərəliliyinin artırılması, torpaq münbitliyinin qorunması, karbon emissiyalarının azaldılması və ekoloji təmiz istehsalında nümunəvi metod kimi dünyada geniş yer almaqdadır. Azərbaycan balıqçılıq və akvakultura sektorunun inkişafında da xarici təşəbbüslərə önəm verəcək. Norveç, Çin və Vyetnamda tətbiq edilən intensiv akvakultura texnologiyaların və emal-logistika infrastrukturunun yaradılması üçün beynəlxalq əməkdaşlıq gücləndiriləcək.

Sənədə əsasən, ölkədə yeni aqroparklar, heyvandarlıq və fermer təsərrüfatları yaradılacaq. Daxili tələbatı ödəmək üçün istehsal sahələri genişləndiriləcək. Bitki yağları istehsalının artırılması üçün bitkiçilik sahəsinin dəstəklənməsi, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi planlaşdırılır. Eyni zamanda azı 2 bitki yağı emalı zavodunun yaradılması hədəflənir.

Bundan başqa, iplik və parça istehsalının təşviq edilməsi üçün güzəştli kreditlərin ayrılması, ipək və xalçaçılıq üzrə emal sahələrinin institusional təkmilləşdirilməsi, pambıq mahlıcı və ipliyi üçün məhsul subsidiyasının tətbiq edilməsi nəzərdə tutulub. Eyni zamanda azı 2 yeni iplik və ya parça emalı müəssisəsinin dəstəklənməsi, pambıq mahlıcının iplik istehsalına yönəldilən hissəsinin, eləcə də ipliyin parça istehsalına yönəldilən hissəsinin artırılması planlaşdırılır.

**Qəssabxanalarda inək kəsiminə subsidiya və vergi güzəştləri tətbiq ediləcək**

Aqrar təsərrüfatların kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə faiz subsidiyalarının verilməsi və investisiya layihələrinin dəyərinin subsidiyalaşdırılması ilə bağlı yeni mexanizm yaradılacaq. Müasir texnologiyaların tətbiq edildiyi, yem bazasına malik olan və cins heyvanların və ya balıqların saxlanıldığı təsərrüfatların və tədarükçülərin rezident banklar və bank olmayan kredit təşkilatlarından 2027-ci ildən başlayaraq 5 il müddətində manatla aldıqları kreditlərə hesablanmış faizlərin, həmçinin icra edilmiş investisiya layihələrinin dəyəri "Azərbaycan Biznesinin İnkişafı Fondu" ASC-nin vəsaiti hesabına subsidiyalaşdırılması həyata keçiriləcək.

Qida Təhlükəsizliyi Agentliyi ölkə üzrə bütün heyvandarlıq təsərrüfatlarında mövcud olan iribuynuzlu və xırdabuynuzlu heyvanların birdəfəlik identifikasiyasını aparacaq və bu sahədə toplanan məlumatlar "Elektron kənd təsərrüfatı" informasiya sisteminə ötürüləcək. Yeri gəlmişkən, Qida Agentliyinin icazə sənədi ilə kəsimxanalarda kəsilən iribuynuzlu heyvanlara müəyyən edilmiş şərtlər ilə subsidiyanın, müddətli vergi güzəştlərinin, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi nəzərdə tutulur.

**İstehsalın və ixracın illik artım gözləntiləri**

Dövlət Su Ehtiyatları Agentliyi təsərrüfatların su təminatının təkmilləşdirilməsi məqsədilə zəruri tədbirlər həyata keçirəcək.

Hədəf göstəricilərinə əsasən, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan ümumi daxili məhsulun artımı 2030-cu ilə qədər illik 2 faiz artım nümayiş etdirəcək. Həmin məhsulların ixracı isə qarşıdakı 4 il ərzində illik 6 faiz gözlənilir.

Dövlət Proqramının icrası nəticəsində aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixrac potensialının yüksəldilməsi, müasir və intensiv istehsal texnologiyalarının tətbiqinin genişləndirilməsi, kənd yerlərində dayanıqlı məşğulluq və gəlir imkanlarının artırılması, ərzaq təhlükəsizliyinin və ekoloji dayanıqlılığın möhkəmləndirilməsi, eləcə də kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin innovativ, yüksək məhsuldarlığa əsaslanan və rəqabətqabiliyyətli inkişaf modelinə keçidinin təmin edilməsi nəzərdə tutulur.

*E.CƏFƏRLİ*

# Müqəddəs Qurban bayramının böyük sevinci və xoşbəxtliyi!



Daha bir əziz günü qarşılamaq qismətimiz oldu. Bu il mayın 27-də ölkəmizdə müqəddəs Qurban bayramı qeyd olunur. İnsanlar uca Yaradana yaxın olmağın sevincini və xoşbəxtliyini yaşayırlar.

Bütün İslam dünyasının ən əziz günlərindən biri olan Qurban bayramı müsəlmanların mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzinə çevrilib. Təməlində humanizm, paylaşmaq, məfkurəyə sadiqlik kimi bəşəri ideyaların dayandığı Qurban bayramı insanları bir-birinə daha yaxın edir, onları həmrəyliyə, mənəvi saflığa, ruzi-bərəkətin sevincini başqaları ilə bölüşməyə çağırır. Bu əziz günlərdə ölkəmizin hər yerində qurbanlar kəsilir, xeyriyyəçilik və sosial yardımlaşma tədbirləri keçirilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

**Azərbaycanın identikliyini şərtləndirən əsas amillərdən biri**

Respublikamızın müasirləşmə yolu ilə davamlı inkişaf kursunun təməlində dayanan əsas amillərdən biri tarixə bağlılıq, dövlətin və cəmiyyətin bizim bir xalq olaraq identikliyimizi şərtləndirən milli-mənəvi dəyərlərə son dərəcə həssas yanaşması ilə bağlıdır. Bu gün dünyada sürətli qloballaşma prosesləri gedir, bütöv xalqlar, dillər, mənəvi dəyərlər ciddi təhdidlərlə üz-üzə qalıb. Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması dövlətin prioritetləri sırasında yer alır. Respublikamızın timsalında tarixiliklə müasirliyin, dövlət maraqları ilə milli maraqların unikal vəhdətini görürük.

Qədim tarixə malik Azərbaycan xalqının milli-mənəvi dəyərlər sisteminin formalaşmasında və zənginləşməsində İslam dini mühüm rol oynayıb. VII-VIII əsrlərdən etibarən xalqımızın həyat tərzi, mədəniyyəti, məişəti bəşəriyyəti saflığa, birliyə səsləyən İslam dini ilə sıx vəhdətdə olub və təbii ki, bu dinin çağırışları xalqımızın həyata baxışının, yaşam fəlsəfəsinin formalaşmasına öz müsbət təsirini göstərib. Eyni zamanda, ölkə ərazisində mövcud olan Əshabi-Kəhf ziyarətgahı, Bibiheybət məscid-ziyarətgah kompleksi, Gəncə "İmamzadə" kompleksi və digər çoxsaylı abidələr Azərbaycanın İslam dini-mədəni dəyərlər sisteminə əhəmiyyətli töhfəsi kimi qiymətləndirilə bilər. 743-cü ildə inşa edilmiş, Azərbaycan xalqı tərəfindən qorunmuş və bir neçə il bundan əvvəl əsaslı şəkildə bərpa edilmiş Şamaxı Cümə məscidi bizim böyük sərvətimizdir. Bu məscid onu göstərir ki, Azərbaycan qədim İslam diyarıdır.

**Hər cəhətdən nümunəvi olan dövlət-din münasibətləri**

Keçmiş sovet rejimi Azərbaycanın da tərkibində olduğu ittifaqın ərazisində digər dinlər kimi, İslam dininə də sərt qadağalar qoymuşdu. Ancaq xalqımız bu qadağalara baxmayaraq 70 il ərzində etiqadını, İslam dininə sadiqliyini qəlbində qoruyub saxladı. Azərbaycan ötən əsrin doxsanıncı illərinin əvvəllərində müstəqillik qazandıqdan sonra adət-ənənələrimizə, o cümlədən də İslam dininə münasibət tamam dəyişdi. Müstəqil Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması və daha da zənginləşdirilməsi siyasətinin, hər cəhətdən nümunəvi olan dövlət-din münasibətlərinin əsası Heydər Əliyev tərəfindən qoyulub. O, xalqın təkidli tələbi ilə 1993-cü ilin yayında ikinci dəfə Azərbaycanın siyasi hakimiyyətinə qayıtdıqdan sonra respublikamızda xalqın milli-mənəvi-dini dəyərlərinin qorunub saxlanılmasına və daha da zənginləşdirilməsinə böyük həssaslıqla yanaşılmağa başlanıldı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə Bakıda və bölgələrdə 500-dən artıq məscid tikilib, yüzlərlə məscid isə yüksək səviyyədə təmir olunaraq inanclı insanların istifadəsinə verilib. Prezident Heydər Əliyevin 21 iyun 2001-ci il tarixində imzaladığı müvafiq Fərmanla Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

**Dövlət-din siyasətində ardıcıllığın təmin olunması**

Respublikamızda 2004-cü ildən bu yana isə zamanında Ulu Öndərin əsasını qoyduğu nümunəvi dövlət-din siyasəti Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirilir. O cümlədən ölkə ərazisində dini abidələrin, məscidlərin, ibadətgahların bərpası istiqamətində mühüm işlər görülüb. Əgər SSRİ dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, indi onların sayı iki mini ötüb, həmçinin ölkə ərazisində 700-dən çox pir və ziyarətgah fəaliyyət göstərir. Hazırda respublikamızda təxminən 300 məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur. Bibiheybət məscid-ziyarətgah kompleksi, Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilərək dindarların istifadəsinə verilib. Şamaxı rayonunun Dəmirçi kəndindəki qədim məscidin bərpası da başa çatdırılıb. Cənubi Qafqazda ən böyük məscid 26 dekabr 2014-cü il tarixində məhz Azərbaycanda istifadəyə verilib. Bu məscid ulu öndər Heydər Əliyevin adını daşıyır.

Ölkə ərazisində tarixi dini abidələrin bərpasında Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da yaxından iştirak edir. Bu məqamda qeyd edək ki, Azərbaycanın çoxlu sayda tarixi-mədəni-dini abidəsi Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində düşmən əlinə keçmişdi. Həmin abidələr otuz illik işğal dövründə ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb və yaxud təhqirlərə məruz qalıb. Hazırda Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-bərpa işləri həyata keçirilir. Həmçinin ermənilər tərəfindən dağıdılmış dini abidələrimizə ikinci həyat verilir. Onlar tarixi fotolara istinad edilməklə bərpa olunur. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu şərəfli missiyanı Heydər Əliyev Fondu öz üzərinə götürüb. Artıq bir sıra abidələrin bərpası tamamlanıb, digərlərində isə işlər intensiv şəkildə davam etdirilir. Əlamətdar haldır ki, Azərbaycan, eyni zamanda, beynəlxalq miqyasda İslam həmrəyliyinin möhkəmlənməsinə, İslam dəyərlərinin və mədəniyyətinin təbliğinə öz töhfəsini verir.

**Tarixdən gələn multikultural ənənələr bu gün də yaşadılır**

Bu gün dünyada milli, dini, irqi zəmində çoxsaylı münaqişələrin baş verdiyi hər kəsə bəllidir. Bəşəriyyət sanki geriyə dönüş edərək mədəniyyətlərin birgə mövcudluğuna qarşı çıxır. Belə bir şəraitdə Azərbaycan multikulturalizmi cəsarətlə təşviq edir. Hazırda dünyada İlham Əliyev kimi, tolerantlıq ideyalarının qorunub saxlanılmasına və daha da zənginləşdirilməsinə səmimi şəkildə çağırışlar edən liderlərin sayı elə də çox deyil. 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə başladılmış, mədəniyyətlərarası dialoq sahəsində yeganə qlobal platforma olan "Bakı Prosesi" mənəvi-mədəni dəyərlərin və multikulturalizmin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Artıq qlobal hərəkata çevrilmiş "Bakı Prosesi" çərçivəsində respublikamızda müntəzəm olaraq müxtəlif tədbirlər həyata keçirilir. Məsələn, Azərbaycan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Bakı Beynəlxalq Humanitar Forumuna, eləcə də Dünya Dini Liderlərinin Sammitinə, Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumuna məmnuniyyətlə ev sahibliyi edir.

Azərbaycan tarixən çoxmədəniyyətli mühiti ilə fərqlənib. Eyni zamanda, tarixi ənənələr qorunaraq yaşadılır və daha da zənginləşdirilir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Respublikamızda bütün dinlərə aid icmalar sərbəst şəkildə fəaliyyət göstərirlər. Fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanda heç vaxt etnik-dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olmuşdur. Azərbaycan dövləti və cəmiyyəti tarixən gələn multikulturalizm ənənələrinin davam etdirilməsinə böyük həssaslıqla yanaşır. Biz inanırıq ki, etnik-mədəni müxtəliflik ayırıcı xətt deyil, əksinə, xalqlar arasında ahəngdar inkişafa xidmət edən unikal sərvətdir.

Azərbaycan geniş əhatə dairəsinə malik olan multikulturalizm siyasətinin həyata keçirilməsində də Heydər Əliyev Fondu fəal şəkildə iştirak edir. Qurum respublikamızda və bütün dünyada müxtəlif mədəniyyətlərə aid olan irsin qorunmasına son dərəcə həssas yanaşma sərgiləyir. Fondun bu istiqamətdə reallaşdırdığı layihələr sərhəd tanımır.

*Mübariz FEYİZLİ*

# Atəşkəs üçün atəş?

## ABŞ Bəndər Abbasa zərbələr endirdi - danışıqlar prosesi davam edir

Yaxın Şərqdə sülhün əldə olunması istiqamətində danışıqlar prosesi gözlənilərkən yenidən silahlar işə düşüb. Belə ki, Fox News xəbər verir ki, ABŞ ordusu Hörmüz boğazında mina atan iki İİKK katerini, eləcə də ABŞ təyyarələrini hədəf alan İran hava hücumundan müdafiə sistemini vurduğunu açıqlayıb. ABŞ Mərkəzi Komandanlığının sözçüsü kapitan Tim Hokins bildirib ki, ABŞ ordusu özünümüdafiə məqsədilə İranın cənubunda İran qayıqlarını və raket buraxıcı qurğularını vurub. "Bu gün ABŞ qüvvələrinə təhdid yaradan hallardan qorunmaq üçün İranın cənubuna özünümüdafiə məqsədli zərbələr endirib. ABŞ ordusu açıqlamasında bildirib ki, hədəflər raket buraxıcı qurğular və mina atan İran qayıqları olub. Hokinsin sözlərinə görə, ABŞ İranla atəşkəs rejimi çərçivəsində "təmkinli davranmağa" davam edir. Qeyd edilib ki, İranın Bəndər Abbas limanında yer-hava raket sistemini vurub. O bildirib ki, SAM ABŞ hərbi təyyarələrini hədəfə alıb. Bildirilib ki, ABŞ zərbələri artıq başa çatıb. Xüsusi olaraq vurğulanıb ki, baş verənlər hücum xarakterli olmayıb, müdafiə xarakterli olub və atəşkəsi pozmaq cəhdi deyil.

İran xəbər agentliyi də Tasnimdəki mənbələrə görə, Bəndər Abbasda üç partlayış səsi eşidildiyini yayıb.

### Atəşkəs zamanı toqquşmalar...

Vurğulayaq ki, ABŞ ilə İran arasında aprelin əvvəlində elan edilən atəşkəs hələ də qeyri-rəsmi qüvvədədir. Lakin may ayında hər iki tərəf qarşılıqlı şəkildə Hörmüz boğazında zərbələr endirib. İran tərəfi bunu atəşkəsin pozulması hesab etsə də, Donald Tramp toqquşmanı "yumşaq zərbə" adlandırıb. Daha sonra ABŞ ordusu Bəndər Abbas limanına və Qeşm adasına zərbə endirmişdi, İran isə üç ABŞ esminesi - USS Truxtun, USS Rafael Peralta və USS Mason gəmilərinə hücum etmişdi. ABŞ gəmilərin zədələnmədiyini bildirmişdi.

Son günlərdə isə İran ilə ABŞ arasında danışıqlar da intensivləşmişdi və hər iki tərəf yekun razılaşma hazırladıqlarını bildirmişdilər. Axios-a görə, atəşkəsin 60 gün uzadılması nəzərdə tutulurdu.

### İran cavab hazırlayır

Bu hadisədən sonra İran hərbçiləri ABŞ-nin yeni hücumunun cavabsız qalmayacağı barədə xəbərdarlıq ediblər. "Fars" agentliyinin məlumatına görə, İran Silahlı Qüvvələrinin yüksək rütbəli rəsmisi Əbülfəzl Şəkarçi bəyan edib ki, İrana qarşı "hər hansı yeni təcavüz" regionun hüdudlarından kənara çıxacaq "çox daha sərt", genişmiqyaslı və amansız cavabla qarşılaşacaq. İran mediası ABŞ-nin bu hücumu nəticəsində İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) azı 4 hərbçisinin həlak olduğunu bildirsə də, rəsmi Tehran hələlik bu məlumatı təsdiqləməyib. Eyni zamanda, İranın vitse-prezidenti İsmail Səqab İsfahani ABŞ-ın "xoş məram dilini" anlamadığını və yalnız güc dilindən başa düşdüyünü vurğulayıb.

O qeyd edib ki, əgər İran Qətərdəki mayeləşdirilmiş təbii qaz (LNG) obyektlərinə "sarsıdıcı zərbə" endirməsəydi, düşmən ölkənin qalan infrastrukturuna və enerji sektoruna hücumlarını davam etdirəcəkdi.

İranın Ali Milli Təhlükəsizlik Şurasının yeni rəhbəri Məhəmməd Baqer Zolqədr isə xalqa ilk müraciətində ABŞ və İsrailə qarşı mübarizədə geri çəkilməyəcəklərini və düşməni diz çökdürəcəklərini bəyan edib.

İran Silahlı Qüvvələrinin "Xatəm əl-Ənbiya" Mərkəzi Qərargahının sözçüsü İbrahim Zülfüqari İran Silahlı Qüvvələrinin Baş Qərargahının ABŞ-ın zərbələrinə reaksiya verdiyini vurğulayıb. Bununla bağlı "X" sosial şəbəkə hesabında paylaşım edib. O, ABŞ-ın regiondakı hərbi fəaliyyətlərini sərt tənqid edib. Zülfüqari paylaşımda bildirib: "Amerikalılar regionumuzda hərbi avantüralarını davam etdirdikcə, heç bir razılaşma əldə olunmayacaq. ABŞ hökuməti dəfələrlə nümayiş etdirib ki, o, yalnız güc dilindən anlayır. Neftin bir barelinin 200 dollar olmasına salam deyin".

Ekspertlər bu bəyanatı regionda gərginliyin daha da artacağına və qlobal enerji bazarlarına ciddi təsir göstərə biləcəyinə dair növbəti xəbərdarlıq kimi qiymətləndirirlər.



### Uran Pekinə "yol alır"...

Qeyd edək ki, razılaşma ilə bağlı yaranan anlaşılmazlıq xüsusilə iki bənd üzrədir. Donald Tramp uranın İrandan ABŞ-a köçürülməsini və ya yerində məhv edilməsini tələb edir. "İran ya "dərhal" zənginləşdirilmiş uranın daha da məhv edilmək üçün ABŞ-a təhvil verməli, ya da onu "yerində" və ya "başqa bir uyğun yerdə" məhv etməlidir", - deyə ABŞ prezidenti Donald Tramp sosial media platforması Thruth Social-da yazıb: "Zənginləşdirilmiş uran ya dərhal geri qaytarılma və məhv edilmək üçün ABŞ-a təhvil veriləcək, ya da İran İslam Respublikası ilə birgə və razılaşdırılmış şəkildə yerində (və ya başqa bir məqbul yerdə) məhv ediləcək". Trampın fikrincə, məhvetmə prosesi MAQATE və ya oxşar komissiyalar tərəfindən izlənilməlidir.

Bundan əvvəl isə Əl-Hədə və Əl-Ərəbiyyə televiziya kanalları mənbələrə istinadən İranın yüksək zənginləşdirilmiş uranı Çinə veriləcəyi təqdirdə öz ərazisindən çıxarmağa hazır olduğunu bildirmişdilər. Uranın 3-cü ölkəyə verilməsi planı ilə bağlı Tehranın da şərtləri var. Mənbələrinə görə, Tehran ABŞ ilə müqavilə bağlamazdan əvvəl Pekindən zəmanət istəyir. Mənbələr həmçinin iddia edirlər ki, Pakistan Ordusunun Baş Qərargah rəisi Asim Munir danışıqlar üçün Dohaya səfər edəcək. Əl Hədə agentliyinin mənbələri əlavə edib ki, Munir Pakistanın Baş naziri Şahbaz Şəriflə birlikdə Çin rəhbəri Si Cinpin arasında görüş keçirib. Onların sözlərinə görə, İslamabad Pekinin də İran və ABŞ arasında hər hansı bir razılaşmanın qarantı kimi çıxış etməsində israr edir.

Bu arada, İranın Tasnim xəbər agentliyi Əl-Hədə və Əl-Ərəbiyyə mənbələrinin iddialarını yalan adlandırmışdı. Mayın 21-də isə Reuters agentliyi İranın ali dini lideri Mütəba Xameneinin ölkədən yüksək dərəcədə zənginləşdirilmiş uranın ixracını qadağan etdiyini yaymışdı. Mayın 24-də isə The New York Times (NYT) ABŞ və İranın Hörmüz boğazının blokadasının qaldırılmasını və Tehranın yüksək zənginləşdirilmiş uran ehtiyatlarının utilizasiya etmək öhdəliyini özündə ehtiva edə biləcək bir razılaşmanın parametrləri barədə razılığa gəldiyini yazmışdı.

### Neftin qiyməti qalxır...

Reuters agentliyi ABŞ-ın İrana hücumlarının Brend markalı neftin fyuçerslərinin 1 faizdən çox artmasına və barel üçün 97,32 dollara çatmasına səbəb olduğunu yayıb. Neft qiymətlərinin enməsi isə yalnız əldə olunacaq anlaşmadan asılı ola bilər. Siyasi ekspertlər qeyd edib ki, bütün dünyanın gözləri bu anlaşmaya dikilib. Vaşinqton isə hələ də müqavilə ilə bağlı vaxt lazım olduğunu qeyd edir. Belə ki, ABŞ dövlət katibi Marko Rubio bildirib ki, ABŞ və Tehran arasında razılaşmanın bütün bəndlər üzrə yekunlaşdırılması bir neçə gün çəkə bilər: "Bu gün Qətərdə bəzi danışıqlar oldu, ona görə də nə qədər irəliləyiş əldə edə biləcəyimizi görəcəyik. Düşünürəm ki, ilkin sənəddəki konkret mətn haqqında çoxlu müzakirələr olacaq, ona görə də bir neçə gün çəkəcək".

Dövlət katibi ABŞ prezidenti Donald Trampın İranla razılığa gəlmək niyyətində olduğunu bir daha təkrarlayıb: "Prezident bunu etmək istəyini ifadə edib. O, ya yaxşı bir razılaşma əldə edəcək, ya da heç etməyəcək".

*P.İSMAYILOV*



# Dünyada sülhməramlıların sayı niyə azalır?

Dünyada ötən ilin sonuna qədər sülhməramlı əməliyyatlarda iştirak edən şəxsi heyətin sayı 25 ilin ən aşağı səviyyəsinə enib. Bu barədə Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun (SIPRI) analitik hesabatında bildirilir. Məlumata görə, 31 dekabr 2025-ci il tarixə olan göstəriciyə əsasən, sülhməramlı əməliyyatlarda 78 633 beynəlxalq şəxsi heyət iştirak edib ki, bu da 2016-cı illə müqayisədə 49 faiz azalma və 2000-ci ildən bəri ən aşağı səviyyədir. SIPRI mütəxəssisləri qeyd edirlər ki, sülhməramlı heyətin sayında azalma on ildir davam edir, lakin 2025-ci ildə azalma ən kəskin - əvvəlki illə müqayisədə 17 faiz olub.

Hesabatda vurğulanır ki, geosiyasi gərginliklər, siyasi təzyiqlər və maliyyə böhranları çoxtərəfli sülhməramlı əməliyyatların davamlılığını təhdid edir. 2025-ci ildə 34 ölkə və regionda 58 çoxtərəfli sülhməramlı əməliyyat aktiv olub ki, bu da əvvəlki ildən üç rəqəm azdır. Afrikada - Saxaradan cənuba və Avropada 18 missiya yerləşdirilib, həbelə 14 missiya Yaxın Şərq və Şimali Afrikada, beşi Şimali və Cənubi Amerikada, üçü Asiya və Okeaniyada.

Sülhməramlı heyətin təxminən 73 faizi beş missiyada cəmləşib ki, bunlardan dördü Afrikada Saxaradan cənuba doğru ərazilərdədir. SIPRI, həmçinin BMT əməliyyatları üçün maliyyə böhranına da işarə edir. İnstitutun məlumatına görə, BMT-nin sülhməramlı missiyaları üçün maliyyə çatışmazlığı 2025-ci ilin iyul ayında 2 milyard dollara çatıb ki, bu da 2024-2025-ci illər üçün BMT-nin 5,6 milyard dollarlıq sülhməramlı büdcəsinin 35 faizdən çoxunu təşkil edir. Ekspertlər qeyd edirlər ki, bu, bir sıra missiyalarda əhəmiyyətli dərəcədə işçi heyətinin ixtisarına səbəb olub. Bundan əlavə, məlumata görə, BMT Təhlükəsizlik Şurasında əməliyyat mandatlarının uzadılması daimi üzvlərin sərt tələbləri və veto təhdidləri ilə çətinləşir.

İnstitutun baş elmi işçisi Klaudiya Pfayfer Kruz bildirib ki, BMT-nin münaqişələrin həllində zəifləmiş rolu alternativ mexanizmlərin hazırda doldura bilmədiyi artan boşluq yaradır. Onun sözlərinə görə, münaqişələrin həllinə çoxtərəfli yanaşmanı qorumaq üçün dövlətlər proqnozlaşdırıla bilən maliyyələşdirməni təmin etməli və effektiv beynəlxalq koordinasiya üçün şərait yaratmalıdırlar.

Qeyd edək ki, sülhməramlılar 1948-ci ildə qurulmuş, Birləşmiş Millətlər Təşkilatının dünyanın müxtəlif qaynar nöqtələrində baş verən münaqişələrin qabağını almaq və ya qısa-müddətli həll yolu gətirmək üçün tərkibində olan hərbi-silahlı qüvvələrdir. Şablon olaraq insanların beynində birləşmiş millətlər və tabeliyində olan qüvvələrin heç bir işə yaramadığı və sülh üçün effektiv mübarizə aparmadığı fikri olsa da, BMT sülhməramlı qüvvələri Kosovo, Əfqanıstan, Haiti, Kipr, Livan, Suriya, Cənubi Sudan, Şimali Sudan, Mali və s. kimi dünyanın onlarca qaynar münaqişə nöqtəsində olan vəziyyəti tənzimləməklə məşğuldurlar. Misal üçün, əgər BMT Suriyanın Qolan təpələrinə nəzarət etməsə idi, indi o ərazilər uğrunda Suriya ilə İsrail arasında münaqişə daha da gərginləşərdi.

Sülhməramlıların sayının dünyada azalmasının əsas səbəbi yalnız maliyyə çatışmazlığı deyil. Burada təhlükəsizlik amili də əsas rol oynayır. Məlumdur ki, bir sıra münaqişəli regionlarda BMT sülhməramlı qüvvələrinə də hücumlar edilir. Bunu Yaxın Şərq nümunəsində də görmək olar. Məsələn, Livanda BMT sülhməramlıların qərargahı hücuma məruz qalıb, patrul xidməti aparan İtaliya sülhməramlılarına dəfələrlə atəş açılıb. Bununla belə, rəsmi Roma bəyan edib ki, Livanda sülhün qorunması və gərginliyin azaldılması üzrə səylər davam etdiriləcək, lakin ölkə sülhməramlıların roluna hörmət olunmasını və onların təhlükəsizliyinin qorunmasını tələb edib.

Rəsmi Cakarta isə Livanda İndoneziya əsgərlərinin öldürülməsindən sonra bütün BMT sülhməramlılarının təhlükəsizliyini tələb edib. İndoneziya xarici işlər naziri Sugiono bildirib ki, Livanda Birləşmiş Millətlər Təşkilatının Müvəqqəti Qüvvələrində (UNIFIL) xidmət edən İndoneziya qoşunları döyüş üçün təchiz olunmayıb: "Onların təlimi və avadanlıqları sülhü təmin etmək üçün deyil, onu qorumaq üçün nəzərdə tutulub. Sülhməramlılar üçün təhlükəsizlik zəmanətləri olmalıdır, çünki onlar sülhü qoruyurlar". Diplomat həmçinin BMT-ni bütün missiya yerləşmə ərazilərində, xüsusən də Livanda təhlükəsizlik prosedurlarının hərtərəfli yenidən qiymətləndirilməsini aparmağa çağırıb.

İllər öncə Konqoda daha böyük faciə baş vermişdi. Belə ki, BMT missiyasına silahlıların hücumu nəticəsində 19 nəfər ölmüş, 53 nəfər isə yaralanmışdı. Üsyançı "Birləşmiş Demokratik Qüvvələr" (ADF) qruplaşması BMT Sabitlik Missiyasının (MONUSCO) bazasına hücum edib. Toqquşmalarda 14 BMT sülhməramlısı, 5 hərbçi ölüb, 53 sülhməramlı yaralanıb. Bu, BMT sülhməramlılarının ölümü ilə nəticələnən ən böyük cinayətlərdən biridir.

*Nardar BAYRAMLI*

# Keçmiş Baş nazir prezident olmaq iddiasında...

## Qabriel Attal namizədliyini rəsmən elan edib

Növbəti il keçiriləcək prezident seçkiləri ilə əlaqədar Fransada siyasi fəallıq xeyli artmaqdadır. Artıq bir sıra siyasətçilər seçkilərdə iştirak etmək niyyətlərini ifadə ediblər. Bir neçə gün əvvəl isə Fransanın keçmiş Baş naziri Qabriel Attal 2027-ci ildə keçiriləcək prezident seçkilərində namizədliyini rəsmən elan edib. Bu addım onun sağ mərkəzçi siyasi blok daxilində mövqeyini gücləndirməyə yönəlmiş strategiyasında yeni mərhələ kimi qiymətləndirilir. 37 yaşlı siyasətçi namizədliyini Aveyron departamentində yerləşən və təxminən 700 nəfər əhalisi olan Mur-de-Barrez kommunasında açıqlayıb.

### Q.Attal kimdir?

Attalın namizədliyini elan etməsi "La Tribune Dimanche" qəzetində dərc olunan və təxminən 500 yerli seçilmiş nümayəndənin imzaladığı müraciətdən bir neçə gün sonraya təsadüf edir. Həmin müraciətdə siyasətçiyə prezident seçkilərində iştirak etməsi üçün çağırış edilmişdi. 2024-cü ilin dekabrında partiya rəhbərliyinə seçildikdən sonra Attal müxtəlif ictimai görüşlər, "Yeni Respublikanın Gecələri" adlı siyasi təşəbbüslər və "Azad insan kimi" adlı kitabının təqdimatı ilə gündəmdə olub. Onun tərəfdarları həmin kitabı prezidentlik kampaniyasının başlanğıc nöqtəsi kimi təqdim edirlər.

Keçmiş hökumət başçısının mayın 30-da Parisdə böyük mitinq keçirməsi planlaşdırılır. Bu arada prezident düşərgəsində 2027-ci il seçkiləri üçün əsas favorit hesab olunan Eduar Filip ilə siyasi rəqabətin də daha da güclənəcəyi gözlənilir.



Qeyd edək ki, Q.Attal Prezident Makronun yaxın tərəfdaşı olub. Hələ 2016-cı ildən Makronla yaxın əlaqəsi olan Attal 2017-ci ildə onun seçki kampaniyasında da fəal iştirak edib və Emmanuel Makronun prezident seçilməsində fəal dəstək göstərib. Sonradan Makron da bu dəstəyi əvəzsiz qoymayıb. Belə ki, Makron prezident seçildən sonra "dost"unu mükafatlandırıb. Mükafat isə parlamentə üzv seçilmək olub. 2020-ci ilə kimi bu vəzifədə qalan Q.Attal elə həmin ildə hökumətin sözçüsü təyin olunub. Bu vəzifədə də 2 il işlədikdən sonra Makron onu təhsil naziri təyin edib. Nəhayət, Makron Q.Attalı özündən sonra ən yüksək vəzifəyə - Baş nazir postuna təyin edib. Attal 2024-cü ilin yanvar-sentyabr aylarında bu vəzifəni daşıyıb.

Qeyd edək ki, Q.Attal da bir sıra fransız siyasətçilər kimi qatı ermənipərəstdir. O, daim erməni lobbisi ilə sıx əməkdaşlıq edir və onlar tərəfindən yüksək dəstək alır. Həmçinin, cinsi azlığın nümayəndəsi olan Q.Attal islamofob açıqlamaları və davranışları ilə də "məşhurdur".

Ümumiyyətlə, Fransada prezident seçkilərinə bir il vaxt qalmasına baxmayaraq, aparılan yeni sorğu seçici meylləri barədə ilkin mənzərə təqdim edir. "Ifop" və "Fiducial" sorğu mərkəzləri tərəfindən "Sud Radio" radiosu və "Le Figaro" qəzeti üçün keçirilən sorğuya əsasən, ifrat sağçı Milli Birlik (Rassemblement National - RN) partiyası səsvermə niyyətlərində üstünlük əldə edir. Araşdırmaya görə, partiyanın lideri Jordan Bardella birinci turda 36 faiz səs toplamaq potensialına malikdir. Eyni partiyanı təmsil edən Marin Lö Pen namizəd olacağı təqdirdə nəticə 34-35 faiz arasında dəyişir.

Rəy sorğusuna əsasən, prezident düşərgəsini təmsil edən Qabriel Attal ("Renaissance" partiyası) 10-11 faiz səviyyəsində dəstək əldə edə bilər. Mərkəz düşərgəsini təmsil etmək üçün sorğuda adı çəkilən digər siyasətçilər - Jerald Darmanen və Sebastyen Lökornü isə 10 faizdən az səs toplayır.

### Rəy sorğularının favoriti Eduard Filipdir

Sorğuda sol düşərgə bir neçə namizədin iştirakı ilə qiymətləndirilib. Jan-Lük Melanşon ("La France Insoumise" partiyası) 10-11 faiz, Rafael Qlüksmen isə 10-12 faiz səs əldə edə bilər. Ekoloqların lideri Marin Tondelye 5 faizdən aşağı, kommunist namizəd Fabyen Russel isə 3 faizdən az səs toplayır.

Sorğu, həmçinin göstərir ki, sosialistləri təmsil etmək üçün Fransua Olland namizəd olsa belə, 8 faizdən aşağı səs toplayacaq. Olivye Fore namizəd olacağı halda isə sosialistlərin dəstəyi 5 faiz səviyyəsinə düşür.

Sağ cinahın namizədi kimi təqdim edilən Brüno Rötayo ("Les Republicains" partiyası) müxtəlif ssenarilərdə 10-12 faiz səs qazana bilər. Əgər mərkəz və sağ blok vahid namizədlə seçkilərə qatılarsa, onun nəticəsi 17 faizə qədər yüksələ bilər.

Sorğuda ifrat sağın arxasınca mərkəzçi siyasi qüvvələr gəlir. əvvəlki sorğulara əsasən keçmiş Baş nazir Eduard Filip ("Horizons" partiyası) mərkəz blokunun vahid namizədi olacağı halda 16 faiz səs toplaya bilərdi. Lakin ən son sorğulara əsasən onun reytinqi əhəmiyyətli dərəcədə yüksəlib. Belə ki, "Elabe" sosial sorğu mərkəzinin tanınmış siyasətçilərlə bağlı apardığı sorğuların nəticəsində E.Filip respondentlərin 50 faizdən çoxunun səsini qazanan yeganə siyasətçi olub. "Les Echos" qəzeti və "Radio classique" radiosunun sifarişi ilə reallaşdırılmış sorğuda 54 faiz səs qazanan sabiq Baş nazir fransız siyasətçiləri arasında birinci yeri tutub.

Təbii ki, seçkilər yaxınlaşdıqca ölkədə siyasi mübarizə daha da güclənəcək. Bu da namizədlərin reytinqində ciddi dəyişikliklərə səbəb ola bilər.

*N.BAYRAMLI*

# NATO Kiyevə yeni hərbi yardım planını bloklayıb

## Bəzi müttəfiqlər alyansın Baş katibinin təklifini qəbul etməyiblər

Rusiya - Ukrayna müharibəsində qarşılıqlı hücumlar şiddətlənib. Qalıcı atəşkəs təşəbbüslərinin nəticə vermədiyi üçün Kiyev tərəfdaşlarından dəstəyi artırmağa çalışır. Ukrayna bu məsələdə NATO müttəfiqlərinin köməyinə ümid edir. Xatırladaq ki, aprelin sonlarında alyansın Baş katibi Mark Rutte təşkilata üzv dövlətlərin ÜDM-in 0,25 faizini Ukraynaya ayırmasını təklif etmişdi. Rutte bu təklifi NATO səfirlərinin qapalı iclasında verib. Əgər onun təklifi müttəfiqlər tərəfindən dəstəklənərdisə, alyansın illik ayırdığı vəsait üç dəfə artaraq, 143 milyard dollara çatmalı idi. Bu məsələ İsveçin Helsinqborq şəhərində keçirilən NATO Xarici İşlər Nazirlərinin iclasında yenidən müzakirə olunub. Qərarın qəbulu üçün alyansın bütün üzvlərinin razılığı tələb edilirdi.

**Alyans üzvləri ÜDM-in 0,25 faizini Kiyevə ayırmaq istəməyib**

Lakin müzakirələr zamanı NATO ölkələrinin Ukraynaya hər il ÜDM-in ən azı 0,25 faizi həcmində hərbi yardım göstərməsini nəzərdə tutan təşəbbüs alyans daxilində bloklanıb. "The Telegraph" qəzetinin məlumatına görə, Böyük Britaniya, Fransa, İtaliya və İspaniya bu təşəbbüsə qarşı çıxıb. Məlumata əsasən, plan NATO üzvlərinin Ukraynaya hərbi dəstəyini daimi və məcburi mexanizmə çevirməyi nəzərdə tuturdu. Bununla belə, təşəbbüs alyans daxilində tam dəstək almayıb. Bildirilir ki, Polşa, Niderland, Baltikyanı ölkələr və Şimali Avropa dövlətləri daxil olmaqla ən azı yeddi ölkə təklifi müdafiə edib. Qeyd olunur ki, həmin ölkələrin bir qismi artıq Ukraynaya yardım üçün ÜDM-lərinin 0,25 faizindən daha çox vəsait ayırır.

Bununla belə, NATO müttəfiqləri Kiyevə hərbi dəstəyi davam etdirir. Belə ki, Ukrayna Avropa tərəfdaşları ilə birgə ballistik raketlərdən müdafiə üzrə koalisiya yaratmağa hazırlaşır. Ukrayna Prezidenti Volodimir Zelenski "Telegram" kanalında bildirib: "Avropalı tərəfdaşlarımıza təşəkkür etmək istəyirəm: milli təhlükəsizlik məsələləri üzrə müşavirlər səviyyəsində görüş keçirilib. Biz Avropada ballistik raketlərdən müdafiə sistemlərinin istehsalı mövzusunu tədricən irəli aparırıq və bununla bağlı koalisiya formalaşdırırıq. Bunu etməyə dəyər və hazırda biz nəticəyə həmişəkindən daha yaxınıq. Həmin görüşdə 13 ölkə və NATO Baş katibinin ofisi təmsil olunub. Bu, çox vacib təşəbbüsdür". Onun sözlərinə görə, Ukraynanın bu gün həm cəbhədə, həm də beynəlxalq tərəfdaşlarla əməkdaşlıqda mövqeyi güclüdür. O, Ukrayna və Avropanın müdafiəsinin bundan sonra da gücləndirilməsinin vacibliyini qeyd edib. "Ukrayna müharibədə tab gətirməli, müstəqilliyini qorumalı, insanların təhlükəsizliyini təmin etməlidir. Bu, mütləq olacaq", - deyə Ukrayna lideri vurğulayıb.

**Almaniyanın 90 milyard avroluq təklifi...**

Almaniyanın xarici işlər naziri Yohann Vadeful isə NATO-dakı həmkarlarına artıq razılaşdırılmış Avropa İttifaqı kreditinə əlavə olaraq Ukraynaya ən azı 90 milyard avro ayırmağı təklif edib. Nazir alyans tərəfdaşlarına Aİ kreditinə "ən azı eyni məbləği ikitərəfli şəkildə" əlavə etməli olduqlarını deyib. Qeyd edək ki, Aİ 2026-2027-ci illərdə Ukraynaya 60 milyard avro hərbi, 30 milyard avro büdcə yardımı krediti ayırıb. Kredit Rusiyanın dondurulmuş aktivlərindən əldə olunan gəlirlər hesabına qaytarılacaq.

Bu arada Kiyev Türkiyədə Rusiya ilə danışıqlara hazır olduğunu bir daha bəyan edib. Bunu Ukraynanın xarici işlər nazirinin müavini Oleksandr Mişenko türk jurnalistləri ilə görüşündə deyib. Türkiyənin aparıcı media nümayəndələri hazırda Ukraynadakı mövcud vəziyyətlə tanış olmaq üçün Ukraynaya səfər ediblər. Səfər çərçivəsində nazir müavini Oleksandr Mişenko media nümayəndələrinə Rusiya - Ukrayna müharibəsinin gedişatı barədə ətraflı məlumat verib. O, qeyd edib ki, Rusiya Ukraynanı öz şərtlərini qəbul etməyə məcbur etməyə çalışır. "Əlbəttə ki, Rusiya hücumlarını davam etdirə bilər və mütləq edəcək, bununla da infrastruktura zərər verə və hətta Ukrayna mülki əhalisi arasında itkiləri artıra bilər. Lakin Rusiya müharibədə heç vaxt məqsədinə çata bilməyəcək", - deyə Oleksandr Mişenko əlavə edib.

**Kiyev Türkiyənin mövqeyindən razıdır**

Nazir müavini Türkiyənin Ukrayna üçün hərbi müttəfiq, strateji tərəfdaş və dost ölkə kimi rolunun vacib əhəmiyyətini qeyd edib: "2014-cü ildə Rusiya işğalının ilk anından Türkiyə Prezidenti Krım və Donbasın Rusiya tərəfindən işğalını tanımadığını açıq şəkildə bildirib". Oleksandr Mişenko Türkiyəyə hərbi əsirlərin qaytarılması səylərinə görə minnətdarlığını bildirib və Ukraynanın Türkiyədə Rusiya tərəfi ilə danışıqlara hazır olduğunu vurğulayıb. "Ukrayna Prezidenti Volodimir Zelenski dəfələrlə vurğulayıb ki, Ukrayna istənilən danışıqlar mərhələsinə hazırdır, lakin bu danışıqlar Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə hörmət əsasında aparılmalıdır", - deyə nazir müavini qeyd edib və əlavə edib ki, davamlı sülh beynəlxalq tərəfdaşlarımızın Ukrayna üçün etibarlı təhlükəsizlik zəmanətlərindən asılıdır.



Bundan əlavə, Türkiyənin xarici işlər naziri Hakan Fidan mayın 24-də Ankarada Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerovla görüşüb. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Görüş qapalı keçib və mətbuat üçün bəyanat səslendirilməyib.

*N.BAYRAMLI*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Müasir təhsilə uzanan yol...

## Düşünən nəslin formalaşmasında təhsil proqramlarının rolu

Cəmiyyətin intellektual inkişafına təsir edən ən mühüm istiqamətlərdən biri elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması hesab olunur. İnformasiya bolluğu dövründə insanların diqqətini yalnız məlumat verməklə deyil, həm də düşünməyə, analiz etməyə və yeni biliklər əldə etməyə sövq edən məzmunlara cəlb etmək mümkündür. Məhz bu səbəbdən peşəkar şəkildə hazırlanmış proqramlar cəmiyyətin dünyagörüşünün formalaşmasında strateji rol oynayır.

Bu tip proqramların hazırlanması zamanı yalnız nəzəri biliklərə əsaslanmaq kifayət etmir. Eyni zamanda auditoriyanın yaş xüsusiyyətləri, psixoloji hazırlıq səviyyəsi, maraq dairəsi və sosial mühitlə əlaqəli amillər də nəzərə alınmalıdır. Çünki uğurlu layihə o layihə hesab olunur ki, şagirdlər yaxud tələbələr özünü təqdim olunan məzmunun bir hissəsi kimi hiss edir, verilən məlumatı gündəlik həyatla əlaqələndirə bilir. Nəticədə öyrənmə prosesi məcburi deyil, maraqlı və könüllü şəkildə həyata keçirilir.

**Bugünkü gənclik yalnız məlumat almaq istəmir...**

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, mədəni-maarif proqramlarının əsas məqsədlərindən biri milli-mənəvi dəyərlərin qorunması və yeni nəslə müasir təqdimat üsulları ilə çatdırılmasıdır: "Lakin burada ən vacib məsələ köhnə metodların mexaniki şəkildə təkrarlanması deyil, ənənə ilə innovasiyanın harmoniyasını yaratmaqdır. Çünki bugünkü gənclik yalnız məlumat almaq istəmir, eyni zamanda həmin məlumatın emosional və vizual təsir gücünü də hiss etmək istəyir. Buna görə də təhsil proqramların hazırlanması zamanı multimedia texnologiyalarından, interaktiv elementlərdən və yaradıcı təqdimat üsullarından geniş istifadə olunmalıdır".



**Təhsil proqramlarında yeni pedaqoji yanaşmalar**

E.Əfəndinin sözlərinə görə, təhsil proqramlarının hazırlanması prosesində həmçinin kurikulumun məqsədyönlü şəkildə qurulması vacibdir: "Təhsil proqramlarının uğuru onun hansı məlumatı verdiyi ilə deyil, həmin məlumatı hansı metodologiya ilə təqdim etdiyi ilə ölçülür. Müasir pedaqoji yanaşmalar göstərir ki, insan beynində uzunmüddətli yaddaşın formalaşması yalnız dinləmə yolu ilə deyil, iştirak, müzakirə, təcrübə və emosional əlaqə vasitəsilə mümkün olur.

Bugünkü rəqəmsal dövrdə elmi-kütləvi proqramların hazırlanması zamanı sadə və ağır terminlərlə dolu izah üsulu artıq effektiv hesab edilmir. Çünki tələbələr mürəkkəb elmi anlayışların gündəlik həyatla əlaqəsini görmək istəyir. Bu baxımdan peşəkar müəllif və ekspertlər elmi məlumatı həm də hekayəçilik texnikası ilə təqdim etməyi bacarmalıdırlar ki, tələbələr bir mövzunu öyrənərkən eyni zamanda emosional maraq da hiss etsin. Məsələn, kosmos, ekologiya, süni intellekt və ya tarix mövzusunda hazırlanmış proqram yalnız faktların sadalanması ilə məhdudlaşdıqda insanlarda qısa müddətli maraq yarada bilər. Ancaq həmin proqram insan həyatına təsiri, gələcək perspektivləri və real nümunələri ilə birlikdə təqdim olunduqda cəmiyyətin düşüncə tərzinə təsir edən maarifləndirici platformaya çevrilir. Bu yanaşma artıq beynəlxalq təhsil modellərində əsas prioritetlərdən biri hesab olunur".

**İnformasiyadan daha artıq: Düşüncə formalaşdıran platformalar**

Ekspert qeyd edib ki, uğurlu təhsil və maarif proqramlarının ən vacib xüsusiyyətlərindən biri onların sosial məsuliyyət daşımasıdır, çünki bu proqramlar yalnız informasiya ötürən vasitə deyil, həm də vətəndaş düşüncəsini, etik davranışı və mədəni baxışı formalaşdıran güclü ictimai platformadır: "Məhz buna görə təhsil proqramları hazırlanarkən istifadə olunan dil, vizual üslub və ideoloji istiqamət son dərəcə diqqətlə seçilməlidir. Gələcəyin ən güclü təhsil proqramları auditoriyanı passiv izləyici kimi deyil, aktiv iştirakçı kimi görən layihələr olmalıdır. İnsan psixologiyası göstərir ki, tələbələrin iştirak etdiyi və fikir bildirdiyi proseslərə qarşı maraq və bağlılığı daha uzunmüddətli olur. Ona görə də interaktiv dərslər, açıq müzakirələr, sosial platformalar üzərindən inteqrasiya olunan layihələr yaxın illərdə təhsil və maarifçilik sahəsində əsas inkişaf istiqamətlərindən birinə çevriləcək.

Nəticə etibarilə, elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması cəmiyyətin intellektual və mənəvi inkişafına xidmət edən mühüm yaradıcılıq sahəsi olmaqla yanaşı, insanların bilik səviyyəsinin yüksəlməsinə, mədəni dəyərlərin qorunmasına və müasir dünyanın çağırışlarına uyğun düşünən yeni nəslin formalaşmasına böyük töhfə verir".

***Yeganə BAYRAMOVA***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır**




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5346**
**Sifariş: 686**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova